

Moldovalı bloger: "Müasir dünyada İlham Əliyev kimi liderləri barmaqla saymaq olar"

5

# Səs

№ 210 (6410) 18 noyabr 2021-ci il. Qiymәti 40 qәpik

# İşğaldan azad edilmiş ərazilərimizdə inkişafın Azərbaycan nümunəsinin yeni təntənəsi



2

*Gün gələcək və bu gün hələ də işğal altında olan bütün torpaqlarda Azərbaycan bayrağı qaldırılacaq". Prezident İlham Əliyev bu sözləri 3 il əvvəl, 2018-ci il aprelin 11-də keçirilən seçkilərdə Ona göstərilən böyük etimada görə xalqımıza müraciətində demişdi.*

# "Rusiya və KTMT Ermənistana görə Azərbaycanla münaqişəyə girməyəcək"




## Çavuşoğlu: "Can Azərbaycan tək deyil, biz onu tək buraxmarıq"



*Can Azərbaycan tək deyil, tək də olmayacaq. Azərbaycanı tək buraxmarıq. Ermənistanın təxribatları Azərbaycan torpaqlarında terror hücumudur. Bu fikirləri Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Bəhreyndə keçirilən mətbuat konfransında söyləyib.*

3

## Maksim Qoən: Ermənistan: distant millətçilik təhlükəsi

Avrasiya Araşdırmaları Mərkəzinin (AVİM) tədqiqatçısı Maksim Qoənin "Atlantico" portalından təzyiqlər altında sildirilmiş məqaləsi yenidən "Causeur" portalında dərc edilib.



3

## Ronaldodan yeni paylaşım: "Mançesterə qayıtmaq vaxtıdır"

16



*"Mançester Yunayted"in portuqaliyalı hücumçusu Kriştiano Ronaldo millinin düşərgəsindən klubuna qayıtması ilə bağlı paylaşım edib. Qol.az xəbər verir ki, 36 yaşlı hücumçu sevgilisi Corcina Rodriqeslə təyyarədə çəkdirdiyi şəkli paylaşaraq bu sözləri yazıb:*

## Koronavirus, qrip, yoxsa zökəm - Xəstəlikləri fərqləndirən əlamətlər hansılardır?



## "Doktorantların, tələbələrin təqaüdlərinin qalxması nəzərdə tutulur"

"Vətən müharibəsində Azərbaycanın əldə etdiyi zəfər yeni geo-strateji və iqtisadi reallıqlar yaratmağa başladı. Bildiyimiz kimi əlimizdə uzun illər istismar edilmiş, darmadağın edilmiş ərazilər var və bu ərazilərə yeni xərclər, infrastrukturun bərpası, iqtisadi aktivliyin təmin edilməsi zərurəti var.

12

13



## Rusiyalı ekspert: "Ermənistanda ikinci hərbi baza açmaq lazımdır"



## "Radikal müxalifət sədrləri öz uğursuzluqlarını başqalarında axtarırlar"

6

*"Nəinki Vətəndaş və İnkişaf Partiyasında (VİP), bütövlükdə radikalizm və avtoritar idarəçilik üslubu olan bütün müxalifət partiyalarında...*



## Alət kimi istifadə edilən marionetlər

14

*Sərhədlərin delimitasiyası, demarkasiyası, ərazi bütövlüyünün tanınması, sülh sazişi kimi qarşıda həlli vacib məsələlərin olduğu halda, bir-birinin ardına ...*

***"Gün gələcək və bu gün hələ də işğal altında olan bütün torpaqlarda Azərbaycan bayrağı qaldırılacaq". Prezident İlham Əliyev bu sözləri 3 il əvvəl, 2018-ci il aprelin 11-də keçirilən seçkilərdə Ona göstərilən böyük etimada görə xalqımıza müraciətində demişdi. Prezident İlham Əliyevin çıxışlarında bu məzmunlu ifadələr çoxdur. Çünki dövlət başçısının hər bir çıxışında, görüşlərində, müraciətlərində, təbriklərində torpaqlarımızın işğaldan azad olunması məsələsi prioritet idi. Prezident İlham Əliyev hər zaman bəyan edirdi ki, danışıqlar nəticəsiz qalacağı təqdirdə güclü Azərbaycan Ordusu öz sözünü deyəcək.***



# İşğaldan azad edilmiş ərazilərimizdə inkişafın Azərbaycan nümunəsinin yeni təntənəsi

*Azərbaycan Prezidenti cəmi bir il ərzində Qarabağın dirçəlişi yolunda bir çox dövlətlərin 10 il ərzində görə bilmədiyi işləri reallaşdırıb*

Artıq bu gün işğaldan azad edilmiş ərazilərimizdə inkişafın Azərbaycan nümunəsinin yeni təntənəsi yaşanır. Azad olunmuş ərazilərdə artıq böyük inkişafın təməlləri atılır. Azərbaycan Prezidenti İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə hər səfərləri zamanı vacib layihələrə start verilməsi və əhəmiyyətli layihələrin reallaşması işğaldan azad olunmuş ərazilərdə artıq böyük inkişafın təməllərinin qoyulması ilə yanaşı, həm də uğurlu inteqrasiyaya nail olmaqla, regional və beynəlxalq səviyyələrdə inkişafı təmin etməkdir.

## "Əraziləri yenidən qurmaq üçün güclü imkanlarımız var"

Prezident İlham Əliyev çıxışlarında, görüşlərində, müsahibələrində dəfələrlə vurğulayıb ki, bu gün Azərbaycanın düşmənlərin dağıtdığını qurmağa güclü imkanları var öz öhdəliklərinə sadiqdir. Çünki Azərbaycanın tarixinə silinməz izlərlə həkk olunan 44 günlük Vətən müharibəsi Azərbaycanın ərazi bütövlüyünün pozulmasına, mədəni-tarixi abidələrinin dağıdılmasına, milli-mənəvi dəyərlərimizin məhvinə, zəngin təbii ehtiyatlarımızın qanunsuz talanına və azərbaycanlıların öz torpaqlarından didərgin düşməsinə səbəb olan Ermənistanın işğalçılıq siyasətinə ağır zərbə vurulması ilə nəticələndi. Azərbaycan tarixi qələbə qazandı. Lakin, qələbənin əldə edilməsi heç də asan olmamışdır. Bunun arxasında Azərbaycanın son 18 il ərzində regionda və beynəlxalq münasibətlərdə həyata keçirdiyi xarici siyasət, ordu quruculuğu, sosial-iqtisadi inkişaf, vətəndaş-iqtidar həmrəyliyi və Azərbaycanın regional güc mərkəzinə çevrilməsi siyasəti dayanırdı. Bu siyasətin uğurla həyata keçirilməsi ölkə başçısı İlham Əliyevin adı ilə birbaşa bağlıdır. Bir sıra tarixi məqamları xatırlamaq məqsədəuyğun olardı. Qələbənin əsas səbəblərindən biri Azərbaycan xalqı tərəfindən Prezident İlham Əliyevə olan böyük etimad və inamın nəticəsi idi. Münaqişənin bitməsinə və qələbə qazanılmasına 44 gün bəs etdisə, dünyanın bu münaqişədə haqlı və işğala məruz qalan tərəf kimi, məhz Azərbaycanın olması faktını qəbul etməsinə 18 il vaxt lazım gəldi. Ölkə başçısı İlham Əliyev tərəfindən torpaqlarımızın işğaldan azad olunması strategiyası uğurla inkişaf etdirilirdi. Artıq Azərbaycanın dünyada təhlükəsizliyin təminatçısı qismində beynəlxalq münasibətlərin subyekti rolunda çıxış etməsi zərurətə çevrildi.

Qələbənin əldə edilməsi ilə regionda və beynəlxalq müstəvidə Azərbaycanın siyasi nüfuzu artmışdır. Azad olunmuş torpaqlarda sosial-iqtisadi inkişaf, abadlıq və quruculuq işlərinin yüksək səviyyədə icrasına başlanılıb. Ümumilikdə isə 2021-ci ildə Qarabağda infrastruktur layihələrin icrası və yenidən qurma işlərinin aparılması üçün Azərbaycan dövlət büdcəsindən 2,2 milyard manat vəsait ayrılmışdır. Görülən işlərin intensivliyini nəzərə alaraq, 2021-ci ilin sonuna kimi bu faktların və görüləcək işlərin ikiqat artacağını indidən proqnozlaşdırmaq olar. Bütün bunlar bir daha onu deməyə əsas verir ki, Azərbaycan regionda sülhün və təhlükəsizliyin təminatçısı olmaqla, ümumilikdə Qafqazda regional güc mərkəzinə çevrilmişdir.

## Qələbə zəfərindən Böyük quruculuğa doğru

44 günlük Vətən müharibəsində əldə edilən qələbədən sonra ölkəmizin həyatında yeni dövr başlayıb, işğaldan azad edilmiş torpaqlarımızda quruculuq, bərpa prosesinə start verilib. Prezident İlham Əliyev həmişə çıxışlarında "mənim sözüm imzam qədər qüvvətlidir"-deyir. Və işğaldan azad olunmuş torpaqlara səfərləri və qısa bir zaman kəsiyində görülən uğurlu işlər və həyata keçirilən layihələr məhz Qalib Liderin sözünün və əməlinin vəhdətinin nümayişidir. Prezident İlham Əliyev bu günə qədər verdiyi bütün vədləri yerinə yetirib. Çünki sözü imzası qədər qüvvətli olan liderdir! Artıq tariximizin qürur doğuran səhifələri yazılır. İndi Şuşa da azaddır, Laçın, Kəlbəcər də, Ağdam da və digər işğal olunmuş rayonlar da. Hazırda işğaldan azad olunmuş torpaqlarımız bərpa olunur, yenidən qurulur, artıq Xarı bülbül boynunu bükməyib. Qarabağın Azərbaycana məxsusluğunu mədəniyyət müstəvisində bəyan edən "Xarıbülbül" festivalı bərpa olunub.

"Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur" deyən Ümummilli Lider Heydər Əliyevin vəsiyyətinə uyğun hakimiyyətdə olduğu 18 il ərzində, hər gün və hər saat Şuşa başda olmaqla işğalda olan bütün əraziləri azad etmək uğrunda mübarizə aparan Prezident İlham Əliyev buna nail oldu. Bütün müharibələrdə olduğu kimi, İkinci Qarabağ müharibəsinin taleyini də strateji bir hədəf həll edirdi ki, bu da Şuşa idi. Məhz buna görə 44 günlük müharibədə çox böyük uzaqgörənlik nümayiş etdirən Müzəffər Ali Baş Komandan İlham Əliyev döyüşən ordunun böyük hissəsini Şuşa istiqamətində səfərbər etdi. Şuşa qələbəsindən sonra azğın düşmən ağ bayraq qaldıraraq təslim oldu, kapitulyasiya aktını imzalamaq məcburiyyətində qaldı, hələ azad olunmamış üç rayonla yanaşı, bir neçə kəndimizi boşaltmaq öhdəliyini üzərinə götürdü və Zəngəzur dəhlizinin açılmasına razılıq verməyə məcbur edildi.

2010-cu noyabrın 1-də Bakıda möhtəşəm Dövlət Bayrağı Meydanın açılışında çıxışı zamanı Prezident İlham Əliyev demişdi ki, gün gələcək və Azərbaycan bayrağı işğal edilmiş torpaqlarda, o cümlədən Şuşada qaldırılacaq. 2021-ci ilin yanvarın 14-ü həmin vəd yerinə yetirildi. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Şuşa şəhərində üçrəngli bayrağımızı qaldırdı. Bu gün Azərbaycan ancaq öz gücü hesabına öz torpaqlarını azad etməli idi və bunu etdi. Bunu dövlət başçımızın dediyi kimi: "Biz bu müharibəyə hazırlaşırdıq və bunu gizlətmirdik. Düşmən qabağımızda diz çökməyə, kapitulyasiya aktına imza atmağa məcbur olmuşdur... Alçaldıcı kapitulyasiya aktı tarixdə əbədi qalacaq".

Və erməni vandalizminin şahidləri - güllələnmiş büstlər doğma Vətəninə qayıdıblar. Bu gün dəmir yumruğun gücü ilə Qarabağ Azərbaycandır - dirçəliş yolundadır. İlk öncə bu gün işğaldan azad olunan ərazilərin minalardan təmizlənməsi əsas məsələlər sırasındadır. Doğrudur, Ermənistan Ağdam, Füzuli və Zəngilan rayonlarında basdırdığı tank və piyada əleyhinə minaya dair xəritələrini Azərbaycana təhvil verib. Bu, Azərbaycan Prezidentinin həyata keçirdiyi uzaqgörən siyasətinin məntiqi nəticəsi idi. Bu, həm on minlərlə vətəndaşın, o cümlədən, minatəmizləyənlərin həyatının təhlükədən xilası deməkdir.

## Görülən işlər göz önündədir

Bu gün görülən işlər göz önündədir. Azərbaycan Prezidenti cəmi bir il ərzində Qarabağın dirçəlişi yolunda bir çox dövlətlərin 10 il ərzində görə bilmədiyi işləri reallaşdırıb, genişmiqyaslı layihələr icra olunur. Şuşaya Zəfər yolu, Füzuli-Şuşa ikinci magistral avtomobil yolu çəkilir, dini-tarixi abidələr bərpa olunur. İnfrastruktur layihələri icra olunur. Yollar, elektrik xətləri, su xətləri, hava limanları, dəmir yolları salınır. Cəmi bir il öncə Vətən müharibəsi başlayanda Azərbaycan Prezidenti xarici KİV-ə verdiyi müsahibələrdə qətiyyətlə, inamla deyirdi ki, işğaldan azad edilmiş torpaqlar yenidən qurulacaq, evlər, inzibati binalar, məktəblər tikiləcək. Yeni-yeni infrastrukturlar yaradılacaq. Beləliklə, ölkəmiz üçün yeni bir dövr başlanacaq. Bu yeni dövr böyük imkanlar açacaq, təkcə iqtisadi sahədə yox, eyni zamanda siyasi münasibətlər sahəsində də müsbət meyillər güclənəcək. Azərbaycan beynəlxalq arenada öz rolunu daha da artıracaq.

Prezident İlham Əliyev əməli ilə bir daha göstərir ki, bu sözləri heç də söz xatirinə söyləməyib. Prezident kimi Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən Azərbaycan Prezidenti bu gün başladığı işlərlə Qarabağın əvvəlki şöhrətini özünə qaytaracağını dünyaya nümayiş etdirir. Hər kəs şahiddir ki, erməni vandallarının daşı daş üstündə qoymadığı torpaqlarımızda bir ildə hansı işlər görülüb və bu quruculuq işləri hər gün davam etdirilir. Həyata keçirilən bütün proseslər təsdiq edir ki, yaxın illərdə Qarabağ yenidən cənnətməkana çevriləcək. Prezident İlham Əliyevin dediyi kimi, ölkəmizin gələcək inkişafı çox uğurlu olacaq. Bu günədək Azərbaycan Prezidentinin bəyan etdiyi bütün hədəflərə nail olunması bunu təsdiqləyir. Və İkinci Qarabağ savaşını "Dəmir yumruq"la qazanan Ali Baş Komandan İlham Əliyev "dəmir iradə" ilə işğaldan azad edilən şəhər və rayonları, qəsəbə və kəndləri bərpa edir, yenidən qurur və çox böyük layihələr reallaşdırır. Yeni açılışlar, təməlqoymalar isə işğaldan azad edilmiş torpaqlarımızda başlanan tikinti-quruculuq, yenidənqurma işlərinin, yəni Qarabağın inkişaf planının tərkib hissəsidir.

Bir sözlə, Azərbaycan 44 günlük Vətən müharibəsi ilə bütün dünyaya səs saldı. Biz möhtəşəm Qələbə qazandıq, öz gücümüzə ərazilərimizi azad etdik. Biz Vətən müharibəsində qazanılan Zəfərin davamı olan quruculuq işlərini də uğurla başa çatdıracağıq. Prezident İlham Əliyev Xocavənd rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə dediyi kimi: "Bu gün keçmiş məcburi köçkünlər evlərinə dönməyə hazırlaşırlar. Xocavəndə birinci səfərdir, bundan sonra bu səfərlər təşkil ediləcəkdir. Biz çalışacağıq, necə ki, müharibəni qısa müddət ərzində başa vurduq, eyni zamanda, bu bərpa işlərini də maksimum qısa müddət ərzində başa vuraq ki, siz qayıdasınız, bu cənnət məkana qayıdasınız. Hər bir torpaq bizim üçün cənnətdir, əzizdir. Azad edilmiş torpaqlarda Azərbaycan xalqı bundan sonra əbədi yaşayacaqdır".

Göründüyü kimi, qürurverici haldır ki, bu gün Azərbaycan qalib ölkə kimi dünya dövlətləri tərəfindən qəbul edilməklə yanaşı, həmçinin, qonşu dövlətlərlə monolit birliyə malikdir. Bu nailiyyətlər isə Prezident, Ali Baş Komandan İlham Əliyevin böyük sərkərdəlik məharəti, güclü iradəsi və qətiyyəti, nəhayət, diplomatik siyasətinin reallığıdır.

**RƏFİQƏ KAMALQIZI**

Təhlil

# Maksim Qoən: Ermənistan: distant millətçilik təhlükəsi

***Avrasiya Araşdırmaları Mərkəzinin (AVİM) tədqiqatçısı Maksim Qoənin "Atlantico" portalından təzyiqlər altında sildirilmiş məqaləsi yenidən "Causeur" portalında dərc edilib.***

AZƏRTAC xəbər verir ki, "Ermənistan: distant millətçilik təhlükəsi" adlı məqalə Fransadakı "güclü" erməni lobbisi mifini darmadağın edir və əslində, erməni lobbisinin iç üzünü açıb göstərir. Erməni lobbisinin Ermənistanda vəziyyətin yaxşılaşmasında maraqlı olmadığını yazıb. Hər vəchlə Türkiyə və Azərbaycanla sülh müqaviləsi bağlamasına mane olmağa çalışdıqlarını bildirib. Məqalədə erməni lobbisinin erməni xalqını necə rəzalətə sürüklədiyi qeyd edilib.

Məqalədə diaspor nümayəndələrinin əslində mənşə ölkələri ilə əlaqələri olsa da, erməni lobbisinin isə ölkə ilə əlaqəsi olmadığını, Ermənistanın inkişafında maraqlı olmadığı qeyd edilib. Ancaq xaricdə erməni diasporunun bütün səylərinə baxmayaraq, Azərbaycanın ötən il torpaqlarını azad etdiyi vurğulanıb. Məqalənin tam mətnini təqdim edirik:

Diasporun mənşə ölkəsinin siyasətinə təsir etmək istəməsi (və ya belə hesab edənlər) yeni bir şey deyil. Tunis 2011-ci ildə dünyanın yerli əhaliyə nisbətdə xaricdən gələn və ikili vətəndaşlığı olanların parlamentdə ən çox təmsil olunduğu ölkə oldu. Fransadakı Seneqal diasporuna gəlincə, bu Afrika ölkəsində diaspordan prezidentliyə namizədlər daha nüfuzlu hesab edildi və 2018-ci ildə onların parlamentdəki təmsilçiliyi ikiqat artdı.

Bununla belə, çox unikal vəziyyət də mövcuddur: erməni diasporu. Erməni diasporunun Fransanın siyasi həyatına simvolik və bəzən praktiki təsiri ilə sayı (təxminən 300 min nəfər, tam assimilyasiya olunmuşları çıxmaqla) və hətta Fransadakı erməni assosiasiyalarının üzvlərinin sayı ilə mütənasib deyil. 2009-cu ildən onların qəzetləri və hətta internet saytları oxucusu olmadığından bir-birinin ardınca bağlanır, 2007-ci ildən Parisdə təşkil etdikləri nümayişlər 300-dən yuxarı iştirakçı toplaya bilmir. Yuxarıda adları sadalanan diasporlardan fərqli olaraq, Fransada, eləcə də Amerika qitəsindəki erməni diasporu, əsasən əcdadları Osmanlı İmperiyasından və ya onun nəzarəti altında olmuş ölkələrdən, xüsusilə də Livandan gəlmiş bu insanların nə erməni vətəndaşlığı, nə də bu keçmiş sovet respublikası-Ermənistan haqqında dərin biliyi var.

Bununla belə, Ermənistanı ən pis vəziyyətə sürüklədikdən sonra erməni diasporu adından danışanlar çox vaxt seçkilərin nəticəsində hakimiyyətə gəlmiş Yerevan hökuməti ilə görünməmiş münaqişə vəziyyətində qalırlar və bu daxili münaqişədə seçki şantajına əl ataraq, Fransanın seçilmiş məmurlarından istifadə etməyə çalışırlar. 1992-ci ildə Ermənistan təkcə keçmiş Dağlıq Qarabağ muxtar respublikasını (əsasən Azərbaycan vətəndaşı olan etnik ermənilərin yaşadığı) deyil, həm də 1989-cu il sovet siyahıyaalmasında ermənilərin cəmi 1faizini təşkil edən digər yeddi rayonu da işğal edərək, qonşusu Azərbaycana təcavüz etdi. Qarabağın ayrı-ayrı şəhərlərində olduğu kimi, blok kimi götürülən işğal olunmuş bütün ərazilərdə də işğal ərəfəsində ermənilər azlıq təşkil edirdi. Azərbaycanlılar və ümumiyyətlə müsəlmanlar qovulmaq və kütləvi şəkildə öldürülməklə bu ərazilərdən silindilər. BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 4 qətnamə, eləcə də 2008-ci ildə Baş Assambleyanın qəbul etdiyi qətnamədə erməni işğalçı qüvvələrin dərhal çıxarılması tələb olunurdu, lakin bu heç bir nəticə vermədi. Avropa İnsan Haqları Məhkəməsinin Böyük Palatası 2015-ci ildə Ermənistanı azərbaycanlı kürd ailəsini didərgin saldığına görə məhkum edib.

Erməni diasporu adından çıxış edənlər Ermənistanın daha çox millətçi ünsürlərini dəstəkləyib, onları barışmazlığa sövq edib və yuxarıda qeyd olunan bütün qərarlara məhəl qoymayıblar. Qaçılmaz nəticə baş verdi: daha çox əhalisi olan, daha zəngin olan, Türkiyənin, həm də İsrail, Ukrayna, Gürcüstan və Macarıstan tərəfindən dəstəklənən Azərbaycan ötən il beynəlxalq səviyyədə tanınmış ərazilərini geri aldı. Ermənistanın baş naziri Nikol Paşinyan bununla da özünün, eləcə də sələflərinin səhvləri və günahlarının miqyasını qiymətləndirə bildi. Tamamilə fərqli bir xətt üzrə o, ötən ilin iyununda keçirilən qanunvericilik seçkilərində qalib gəldi...

Bununla belə, Atlantik okeanının o tayında olduğu kimi Fransadakı erməni assosiasiyalarının əksəriyyəti Paşinyana təkamülünə görə ona düşmən münasibət bəsləyir və Parisdən, Liondan və ya Marseldən rahat danışan diaspor üzvləri üçün deyil, məhz Ermənistanın özü üçün fəlakətli olacaq yeni müharibədən danışırlar. Fransa Erməni Assosiasiyaları Koordinasiya Şurasının (CCAF) həmsədri Frank "Murad" Papazyan "sülh olarsa, Türkiyə və Azərbaycan Ermənistanda sənayeni inkişaf etdirəcəklər. Çox saylı yerli işsizlər işlə təmin olunacaq (Radio AYP FM, 26 dekabr 2020)" perspektivindən narahatlığını bildirməsi ilə vəziyyət kulminasiya nöqtəsinə çatdı. O, həmin vaxtdan fikrini hələ də dəyişməyib və Fransada Ermənistan hökuməti əleyhinə nümayişlər keçirməyə çağırışlar edir.




Fransadakı erməni diasporu Ermənistandakı ermənilərdən çox vətənpərvərlik göstərməsindən başqa, bu kiçik erməni millətçilərinin göstərdiyi son dərəcə kəskin aqressivlik daha çox təəccübləndirir.

TF1 televiziya kanalının rəhbərləri və bu kanalın jurnalisti Lizeron Budul keçən il ölümlə təhdid edildi, onu öldürməyə çağırış edənlərdən biri açıq şəkildə onu Samuel Pati kimi qətlə yetirməyi təklif etdi. Səbəb? Televiziyada gedən reportajdan xoşları gəlmədi. "Liberation" ilə əməkdaşlıq edən, Orli hücumu ilə tanınan Ermənistanın Azadlığı Uğrunda Gizli Erməni Ordusunun (ASALA) yenidən qurulması haqqında danışan jurnalistlər fanatiklərin hücumları ilə təhdid edildi (səkkiz ölü; bomba uçuş zamanı partlamalı və 117 nəfəri öldürməli idi): bu jurnalistlərin erməni tərəfdə vuruşan neonasistlərdən danışırdılar...

Hətta bu yaxınlarda, ötən ilin aprelində politoloq Bruno Tertre Ermənistanla Azərbaycan arasındakı münaqişə ilə bağlı müəyyən həqiqətləri söyləməyə cəsarət etdiyinə görə feysbukda "Yerkir" erməni assosiasiyasının rəhbəri Armen Ghazaryan tərəfindən təhqir edildi. Şərhçilərdən biri Tertreyə qarşı qətl törətmək terrorizmini dəstəklədi. Aidiyyəti şəxsin ifşası olunması bu dəhşətlərin nümayişi bir neçə gün çəkdi. Bu, heç kəsi təəccübləndirməməlidir, çünki tam cəzasız qalan Lissabon kamikadze terrorçularına (1983-cü ildə Erməni İnqilab Ordusu tərəfindən Türkiyənin Portuqaliyadakı səfirliyinə qarşı hücum) hər il Fransa torpaqlarında anım mərasimləri keçirilir.

Ancaq bu cür anım mərasimlərini təşkil edənlər bu gün Fransada yerli və milli seçilmiş rəsmilər tərəfindən mütəmadi olaraq qəbul edilir, sanki özlərini deyil, başqa bir şeyi təmsil edirlər. Bu qəbullar Fransanın milli maraqlarına, eləcə də müqavilələrin və iş yerlərinin itirilməsi ilə zərər vurur, həm də sülhə və barışığa ehtiyacı olan Ermənistanın özünün də İran mollalarından asılılığını azaltmasına da mane olur.

İqtisadi məsələlərdə normal münasibətlərin qurulması üçün İrəvan Azərbaycan və Türkiyə ilə müqavilələr imzalama mərhələsindədir. Bu imzalama regionu sabitləşdirəcək və bütün xoş niyyətli insanlar üçün faydalı olacaqdır.

# Ceyhun Bayramov: Zəngəzur dəhlizinin açılışı üçün işlərə başlanılıb

Zəngəzur dəhlizinin açılması çox önəmlidir. Üçtərəfli Bəyanata əsasən, Azərbaycanın qərb hissəsi ilə Naxçıvan arasında yol açılacaq. Bu, həm də Türkiyə ilə Azərbaycan arasında birbaşa əlaqənin yaradılması deməkdir. Bu, ölkələrimiz üçün çox vacibdir. Bu yolun açılması ilə Türkiyə və Azərbaycan əlavə üstünlüklər qazanacaq. Bizim Türkiyə vasitəsilə Avropa bazarına çıxmaq imkanımız olacaq. Eynilə Türkiyənin də Azərbaycan ərazisindən Orta Asiyaya çıxmaq imkanı yaranacaq. Bu, həm Ermənistanın, həm də regionun digər ölkələrinin xeyrinə olan layihədir. Ermənistanın bunu başa düşəcəyini və çox konstruktiv addımlar atacağını gözləyirik.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Türkiyənin Anadolu agentliyinə müsahibəsində bildirib.

Naxçıvanı Azərbaycanın əsas hissəsi ilə birləşdirəcək Zəngəzur dəhlizinin açılışı üçün işlərin başlandığını deyən C.Bayramov qeyd edib: "İşlərə artıq başlanılıb. İndi dəmir və avtomobil yollarını birlikdə təşkil etmək lazımdır. Sovet dövründən qalan quru yolları var idi. Lakin Azərbaycan torpaqlarının ermənilər tərəfindən işğalından sonra həm işğal olunmuş bölgədə, həm də Ermənistan ərazisindən keçən hissədə yol infrastrukturu tamamilə dağıdılıb. Bu il Azərbaycan öz ərazisində qalmış yolun yenidən qurulmasına başlayıb. Üçtərəfli Bəyanatın bütün maddələri həyata keçirilsə, işin yalnız kiçik bir hissəsi qalacaq. Onun həyata keçirilməsi çox vaxt tələb etməyəcək. Ona görə də dəhlizin nə zaman açılacağını demək mənim üçün çətindir, amma işlər davam edir".




# Çavuşoğlu: "Can Azərbaycan tək deyil, biz onu tək buraxmarıq"

***Can Azərbaycan tək deyil, tək də olmayacaq. Azərbaycanı tək buraxmarıq. Ermənistanın təxribatları Azərbaycan torpaqlarında terror hücumudur. Bu fikirləri Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Bəhreyndə keçirilən mətbuat konfransında söyləyib.***



Nazir deyib: "Regionda sülh və sabitlik üçün birlikdə addımlar atacağıq. Ermənistan bununla razılaşarsa, biz də varıq. Amma Ermənistan belə təxribatlarla yalnız itirəcək". Mövlud Çavuşoğlu qeyd edib ki, Azərbaycan Ermənistana hərtərəfli sülh sazişi imzalamaq təklifi edib. "Yəni müharibədə qalib gələn və güclü olan tərəf bunu etdi. Ermənistan isə atəşkəsdən dərhal sonra bəzi əsgərlərini Azərbaycan torpaqlarına sızdıraraq əsgərimizə hücum etdi. Bu mövqe yanlışdır", - deyə nazir vurğulayıb.

# Milli dirçəlişdən ZƏFƏRƏ doğru



***Ötən əsrin 80-ci illərinin sonu Azərbaycan ictimai-siyasi həyatında baş verən hadisə ölkəmizin tarixində mühüm yer tutur. 1988-ci ilin noyabrın 17-də 70 il sovet ittifaqının tərkibində yaşayan xalq bu imperiyaya qarşı etiraz olaraq haqq səsini, azadlıq səsini ucaldıb ayağa qalxdı. Milyonlarla insanın meydana yol alması artıq ölkəmizin həyatında dönüş nöqtəsi idi. Ermənilərin Qarabağda azərbaycanlılara qarşı haqsız ərazi iddialarına başlaması, Topxanada törətdikləri vəhşiliklər, Ağdamda isə iki azərbaycanlını qətlə yetirmələri xalqımızın haqsızlıqlara qarşı barşımaz mövqeyini, iradəsini ortaya qoymuş oldu.***

Məlumdur ki, 1988-ci ilin ilk günlərində Ermənistanın Azərbaycana qarşı açıq təcavüzü başlanmışdı. Ermənistan hökumətinin tapşırığı və göstərişi ilə Ermənistanda yaşayan 200 mindən çox azərbaycanlının öz ata-baba yurdlarından kütləvi surətdə qovulması, artıq vəziyyətin olduqca gərgin olmasının göstəricisi idi. Öz tarixi torpaqlarından, ev-eşiklərindən qovulan azərbaycanlılar ermənilərin iyrənc, tükürpədən əməlləri ilə də üzüzə idilər. Onlara verilən cismani cəza, insanların diri-diri yandırılması erməni vəhşiliyinin nə dərəcədə olduğunu göstərirdi. Əslində, bu əməlləri törədənlər vəhşilər idi. Çox təəssüf ki, ermənilərin tarixdə görünməmiş bu vandalizminə, təcavüzünə o vaxtkı keçmiş SSRİ rəhbərliyi də reaksiya vermirdi. 1988-ci ilin fevralın əvvəllərində Qarabağda ixtişaşlar törətdilər. Azərbaycanın tarixi torpağı olan Qarabağı Azərbaycandan qoparıb Ermənistana birləşdirməsi haqqında məsələ qaldırdılar. Azərbaycan xalqı etirazını rəhbərliyə çatdırsa da nə Moskva, nə də Azərbaycanın o vaxtkı rəhbərliyi tərəfindən tədbir görülmədi. Əlbəttə ki, artıq xalqın haqq səsinin ucaldılması zərurəti yaranmışdır. Milyonlarla insanın toplaşdığı "Azadlıq meydanı" bir məslək yolunda olan insanların toplandığı məkan idi. Milyonlarla insanının həmrəyliyi, bir məqsəd uğrunda birləşməsi xalqın böyüklüyünü, eləcə də onun müstəqillik yolunda mücadilə etmək bacarığını ortaya qoydu. Ötən əsrin əvvəllərində azadlığı, mütəqilliyi yaşayan Azərbaycan xalqı bir əsrdə ikinci dəfə bu yolda mücadiləyə qalxdı. Çətin bir yol olsa da, müstəqilliyin böyük nemət olması insanları heç nədən çəkindirmədi. "Azadlıq", "Qarabağ bizimdir" kimi şüarlarla keçirilən mitinqlər Bakını, eləcə də respublikamızın şəhər və rayonlarını bürüdü. Bu artıq böyük bir oyanış idi. Xalqın müstəqilliyi yolunda oyanışı. Beləliklə, Ermənistanın Azərbaycana qarşı ərazi iddiası irəli sürməsi, Dağlıq Qarabağda yaşayan ermənilərin separatçılıq hərəkatı, yüz minlərlə azərbaycanlının tarixi torpaqlarından uzaqlaşdırılması "Meydan hərəkatı"nın əsasını qoydu. Artıq 70 il hökm sürmüş imperiyanın əsl mahiyyəti hər kəsə aydın idi. Onun buxovlarından xilas olmaq məqamı yetişmişdi.

17 günlük "Meydan hərəkatı" Azərbaycanın müstəqilliyinin bərpasında mühüm mərhələ kimi tarixə həkk olunub. 17 noyabr Azərbaycanın tarixi salnaməsində azadlıq hərəkatı, diçəliş günü olaraq yer alıb. Hər il Azərbaycanda 17 Noyabr Milli Dirçəliş gününün qeyd edilməsi məhz tarixi reallıqlara söykənir. Milli Dirçəliş yolu milli birlik və milli həmrəylikdən keçir. 17 noyabr hadisəsi sübut etdi ki, Azərbaycan xalqının məqsədi, məramı azadlıq, müstəqillikdir və bu yolda canlar fəda edilsə də, xalq iradəsini qırmaq qeyri-mümkündür.

## TƏRƏQQİ VƏ İNKİŞAFA DOĞRU UZANAN TARİXİ YOL

1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının Ali Sovetinin yeni tərkibdə ilk sessiyası keçirildi və Muxtar Respublikanın adından "sovet" və "sosialist" sözləri çıxarıldı. Əlbəttə ki, o zaman hələ Azərbaycan imperiyanın tarix səhnəsindən silinməmişdi və Naxçıvanın adından qeyd olunan sözlərinin çıxarılması müstəqilliyimizin qazanılması yolunda çox böyük tarixi addım idi. Bu, Ümummilli Lider Heydər Əliyevin milli dövlətçiliyimizin dirçəlişi istiqamətində ilk böyük tarixi addımı idi. Ulu Öndər Heydər Əliyevin sədrliyi ilə keçirilən həmin tarixi sessiyada Muxtar Respublikanın dövlət rəmzləri haqqında məsələ də müzakirə olunub. Müzakirədən sonra üçrəngli bayrağın dövlət rəmzi kimi qəbulu ilə əlaqədar təklif irəli sürülüb. Azərbaycan Xalq Cümhuriyyətinin üç rəngli bayrağının bərpa olunması barədə qərar çıxaran sessiya onun dövlət bayrağı kimi qəbul edilməsi ilə əlaqədar Azərbaycanın Ali Soveti qarşısında vəsatət qaldırıb. Beləliklə, milli dirçəlişdən milli tərəqqiyə doğru uzanan tarixi yolun başlanğıcı qoyuldu.

Ulu Öndər Heydər Əliyevin 1993-cü ilin iyun ayının 15-də yenidən Azərbaycana rəhbərliyə qayıdışı Azərbaycan həyatında dönüş nöqtəsi oldu. Azərbaycanda inkişafın yeni mərhələsi başlandı. XX əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərində Azərbaycanda baş verən ictimai-siyasi hadisələr nəticəsində, ölkəmizdə bütün sahələrdə yaşanılan tənəzzül ölkəni böhran vəziyyətə salmışdır. Dahi Şəxsiyyət Heydər Əliyevin siyasi kursu sayəsində, Azərbaycan özünün müstəqilliyinin sütunlarını möhkəmlətdi, onun dünyaya inteqrasiya olunmasına töhfələrini verdi. Ulu Öndər Heydər Əliyev Şəxsiyyət, Siyasi Xadim, xalqın dayağı, onun hərəkətverici qüvvəsi olaraq, Azərbaycan tarixində əsrin Lideri olduğunu təsdiqlədi. Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə ölkəmizdə böyük sıçrayış baş verdi. Həmin tarixə qədər son illərdə baş verən hadisələr, xalqı, bütövlükdə, uçuruma sürükləyən məqamlar - istər ölkə daxilində, istərsə də xaricində onun sütunlarını zəiflətməyə başlamışdı. Belə bir zamanda, xalqın təkidi və istəyi ilə hakimiyyətə lən, Qayıdışı ilə böyük nailiyyətləri Azərbaycan salnaməsinə daxil edən Ulu Öndər Heydər Əliyev Ona etimad göstərənlərin ümidini doğrultdu. Ölkəmizdə iqtisadi sabitliyin təmin edilməsi, tənəzzülə uğramasının qarşısının alınması və yeni dövrün tələblərinə uyğun şəkildə islahatların həyata keçirilməsi önəmli idi ki, Ulu Öndər Heydər Əliyev də müdrikcəsinə dövrün irəli sürdüyü bu tələbləri müstəqil Azərbaycan dövlətində ardıcıl şəkildə həyata keçirdi və ölkəmizdə yeni iqtisadi mühit, azad bazar iqtisadiyyatı formalaşdı. Sonrakı dövrlərdə Azərbaycan vətəndaşlarının sosial durumunun yaxşılaşdırılması ilə bərabər, dövlət quruculuğu siyasətinin ardıcıl surətdə həyata keçirilməsi, Azərbaycan dövlətinin beynəlxalq nüfuzunun artırılması istiqamətində addımlar atıldı.

## XXI ƏSRİN MÜHARİBƏSİNİ APARAN AZƏRBAYCAN TARİXİNƏ ZƏFƏR GÜNÜNÜ YAZDI

Bugünkü mövcud vəziyyət, iqtisadi inkişaf, siyasi sabitlik, eləcə də, beynəlxalq aləmdə ölkəmizə inamın və marağın artması, məhz Ulu Öndər Heydər Əliyevin siyasətinin təntənəsidir. Müstəqil Azərbaycanın bütün sahələrdə qazandığı möhtəşəm nailiyyətlər Ulu Öndər Heydər Əliyev ideyalarının təntənəsi və milli tariximizin şanlı səhifələridir. Ulu Öndər Heydər Əliyevin xalqımız qarşısındakı xidmətlərindən danışarkən Ümummilli Liderin Azərbaycan Ordusunun qurucusu və yaradıcısı olması faktını da qeyd etməliyik. Qısa müddət ərzində müstəqilliyimizin təminatçısına çevrilən, vahid komandanlığa tabe olan güclü və qüdrətli ordu yaradıldı. Ordumuz hərb elminin prinsipləri əsasında yaradıldı, dövlət səviyyəsində hərtərəfli qayğı ilə əhatə olundu, müasir dünya ölkələrinin təcrübəsi əsasında formalaşma yolu keçməyə başladı.

Bu gün Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin dərin məzmunlu və çoxşaxəli siyasi kursu ilə müstəqilliyimiz daha da möhkəmlənib. Ən əsası da odur ki, indi Azərbaycan tarixinin ən qüdrətli dövrünü yaşayır. Dünyada söz sahibi olan Azərbaycan Cənubi Qafqazın lideri statusunu daşıyır. Tam müstəqil siyasət yürütməsi də respublikamızın beynəlxalq imicinə müsbət təsir edən əsas amillərdəndir. Sevindirici haldır ki, bu gün Azərbaycan Zəfər çalmış bir xalq, dövlət olaraq da dünyada tanınır. 30 ilə yaxın düşmən tapdağı altında olan torpaqlarımızın işğaldan azad edilməsi və Vətən müharibəsindəki Qələbə Azərbaycanın beynəlxalq nüfuzunu daha da yüksəldib. Bu qələbə Cənab Prezident İlham Əliyevin qətiyyəti, xalqımızın inamı və şəhidlərimizin qanı bahasına əldə olundu. Ali Baş Komandanımızın rəhbərliyi ilə ordumuz Ermənistana böyük zərbə vurdu və əzəli torpaqlarımız işğaldan azad olundu. Ulu Öndərin məhvolma təhlükəsindən xilas edib inkişaf yoluna çıxardığı Azərbaycan dövləti sözün əsl mənasında, daha da möhkəmlənib.

Bəli, 17 noyabr tarixi bir daha göstərdi ki, azad düşüncəli xalqı müstəmləkə altında saxlamaq olmaz. Bu gün Azərbaycan xalqın milli oyanışının zirvəsi oldu. Həmin tarixdən Azərbaycan böyük inkişaf yolu keçdi, iqtisadi gücü yüksəldi, dünyada söz sahibinə çevrildi. Məhz bu güc Azərbaycanı dirçəlişdən Zəfərə doğru apardı. 30 ilə yaxın mənfur düşmən tapdağı altında olan torpaqlarımız azad edildi, xalqımız Zəfər tarixini yaşadı. Bu Zəfər Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin siyasi iradəsinin, xalq-iqtidar birliyinin təntənəsidir. XXI əsrin müharibəsini aparan Azərbaycan tarixinə Zəfər gününü yazdı.

***Nəzakət ƏLƏDDİNQIZI***





# Heydər Əliyev ideyaları bu gün də uğurlarımıza bələdçilik etməkdədir



*Noyabrın 17-də Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatında partiyanın yaradılmasının 29-cu ildönümü ilə əlaqədar tədbir keçirilib. Tədbir iştirakçıları əvvəlcə Heydər Əliyev parkında Ümummilli Liderin abidəsi önünə əklil və qızılgül dəstələri düzüblər. Sonra tədbir YAP Xətai rayon təşkilatının akt zalında Dövlət Himnimizin səsləndirilməsi, YAP-ın qurucusu, ulu öndər Heydər Əliyevin və Vətən müharibəsində canlarından keçən şəhidlərimizin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə davam edib.*




Tədbiri giriş sözü ilə açan YAP Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə bildirib ki, Yeni Azərbaycan Partiyası yarandığı gündən Azərbaycan tarixinin ən möhtəşəm səhifəsini, unudulmaz anlarını bizə yaşadıb. "Xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev Yeni Azərbaycan Partiyasını yaratdığı zaman Azərbaycanda "Olum ya ölüm" dilemmasının yaşandığı dövr idi. Bu gün isə bizi o gündən artıq 29 il ayırır. Bu müddət ərzində biz gündən-günə inkişaf edən, bütün dünyada durmadan siyasi nüfuzunu və iqtisadi potensialını artıran güclü, qüdrətli Azərbaycanı müşahidə etmişik. Yeni Azərbaycan Partiyasının Sədri, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə bu gün Azərbaycan ən şanlı tarixini yaşayır. Heydər Əliyev irsi, ideyaları bizə müasir dövrdə də getdiyimiz yolda uğurla bələdçilik edir. Bu gün Ulu Öndərin siyasi kursunun layiqli davamçısı Yeni Azərbaycan Partiyasının Sədri, cənab Prezident İlham Əliyev bu ənənələrə sadiq qalaraq ölkəmizin və xalqımızın parlaq gələcəyinə özünün töhfələrini verir. Biz də partiya üzvləri olaraq bundan sonra da bütün Azərbaycan xalqı kimi, dəmir yumruğun ətrafında sıx birləşərək qüdrətli Azərbaycan naminə əlimizdən gələni edəcəyik."

Çağdaş tariximizin daha bir əlamətdar hadisəsi - 17 noyabr Milli Dirçəliş Günü münasibətilə də tədbir iştirakçılarını təbrik edən V. Rəhimzadə vurğulayıb ki, 17 noyabr tarixi həm də 1990-cı ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisində Ümummilli Lider tərəfindən üçrəngli dövlət bayrağımızın rəsmi dövlət statusu alaraq dalğalandırıldığı gün kimi əlamətdardır. Bununla da Azərbaycanın müstəqilliyinin təməlinin qoyulması yolunda növbəti ən böyük addımlardan biri atıldı.

Tədbirdə çıxış edən Xətai Rayon İcra Hakimiyyətinin başçısı Rafiq Quluyev bildirib ki, 1992-ci ildə məşhur "91-lər"in müraciəti və Ulu Öndərin rəhbərliyi ilə yaradılan Yeni Azərbaycan Partiyası şanlı tariximizin ən parlaq səhifələrindəndir. "Partiyanın yaranma zərurəti 1988-ci ildə ermənilərin azərbaycanlılara və Azərbaycana qarşı təcavüzünün artması, məşhur Topxana meşəsinin qırılması ilə başladı. Milyonlarla insanın bir araya gələrək haqlarını tələb etmələri, illərdir əsarətində olduqları imperiya rejiminə qarşı çıxmaları tarixdə misli görünməmiş bir hadisə idi. Ulu Öndər Naxçıvana gedib Ali Məclisin Sədri seçildikdən sonra məhz Onun təşəbbüsü ilə qardaş Türkiyə ilə Naxçıvan arasında "Ümid" körpüsü açıldı, SSRİ məkanında ilk dəfə muxtar respublikada başqa bir bayraq qaldırıldı. Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə gəlməsindən sonra isə müasir Azərbaycanın təməli qoyuldu. 1994-cü ildə atəşkəsin elan olunmasından sonra "Əsrin müqaviləsi"nin imzalanması ilə hər kəs gündən-günə durmadan inkişaf edən Azərbaycanın şahidi oldu. Diplomatik sahədə uğurlar, artan iqtisadi güc, mükəmməl ordu quruculuğu işləri bu gün möhtərəm Prezidentimiz İlham Əliyevin uzaqgörən siyasəti ilə davam etdirilir. Bunun məntiqi nəticəsi olaraq biz 30 ildir həsrətində olduğumuz doğma torpaqlarımıza qayıda bildik. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli ordumuz cəmi 44 gün ərzində Vətən torpaqlarını əsl sahiblərinə qaytararaq düşmənin mənfur ayağını oradan kəsməyi bacardı. Bu səbəbdəndir ki, artıq bütün dünya Azərbaycanla hesablaşmağın gərəkliyini bilir və hər kəs anlayır ki, heç kim Azərbaycanla hədə-qorxu, güc dilində, diqtə ilə danışa bilməz."

Tədbirdə çıxış edən, "91-lər"in və YAP İdarə Heyətini üzvü, Milli Məclisin deputatı Mixail Zabelin vurğulayıb ki, Yeni Azərbaycan Partiyasının yaranması yüksək səviyyədə təşkilatlanması milli tariximizdə görkəmli yer tutan ulu öndər Heydər Əliyevin şərəfli adı ilə bağlıdır: "1992-ci il oktyabrın 16-da Azərbaycanın 91 nəfər tanınmış ziyalısı "Səs" qəzeti vasitəsi ilə Ulu Öndərə "Azərbaycan Sizin sözünüzü gözləyir", - deyə müraciət etdi. Görkəmli dövlət xadimi Azərbaycan ziyalılarının müraciətinə oktyabrın 24-də "Yeni müstəqil Azərbaycan uğrunda" çağırışı ilə başlayan cavab verdi. Heydər Əliyev "91-lər"in müraciətinə cavabında Yeni Azərbaycan Partiyasının yaradılmasının obyektiv zərurətdən doğduğunu vurğulayaraq onun fəaliyyətində fəal iştirak etməyə hazır olduğunu bəyan etdi. Yeni Azərbaycan Partiyası dövlət müstəqilliyinin möhkəmləndirilməsi, ərazi bütövlüyü, ictimai həmrəylik, sabit və sosial istiqamətli iqtisadiyyat yaratmaq, irqindən, milliyyətindən, dinindən, dilindən asılı olmayaraq hər kəsin hərtərəfli inkişafı və müdafiəsini təmin etmək məqsədilə yaradılan partiyadır. Bu gün də bu ənənələr layiqincə davam etdirilir."

Daha sonra çıxış edən akademik Vaqif Abbasov, Xalq artisti, şəhid atası Əli Nur, "91-lər"in üzvü Ədalət Fərəcov vurğulayıblar ki, Yeni Azərbaycan Partiyasının yaranması 1988-ci ildən başlayaraq ölkəmizdə cərəyan edən hadisələrin yekunu və həmin dövrdə mövcud olan ictimai-siyasi şəraitin məntiqi nəticəsi idi. Bildirilib ki, Yeni Azərbaycan Partiyası müasir müstəqil Azərbaycanın siyasi həyatının bütün mərhələlərində tarixi missiyasını uğurla yerinə yetirib.

Sonda Xətai Rayon İcra Hakimiyyətinin, YAP Xətai rayon təşkilatının və Xətai rayon Gənclər və idman idarəsinin təşkilatçılığı ilə Yeni Azərbaycan Partiyasının yaranmasının 29 illiyi ilə bağlı orta məktəblər arasında keçirilən Şahmat turnirinin qalibləri Fəxri fərman və diplomlarla təltif olunması mərasimi ilə davam edib.

# Moldovalı bloger: "Müasir dünyada İlham Əliyev kimi liderləri barmaqla saymaq olar"

***Azərbaycan Prezidenti İlham Əliyevə Türk Dünyasının Ali Ordeni ölkəsinin ərazi, siyasi, tarixi və mənəvi hüquqlarının qorunmasında göstərdiyi qətiyyətə görə təqdim edilib. İstər postsovet məkanında, istərsə də müasir dünyada İlham Əliyev kimi liderləri barmaqla saymaq olar. AZƏRTAC xəbər verir ki, bu fikri Moldovanın tanınmış blogeri, jurnalist Artur Yefremov öz feysbuk səhifəsindəki statusunda yazıb.***

Moldovalı bloger bildirib ki, Rəcəb Tayyib Ərdoğan azərbaycanlı həmkarını bu yüksək mükafatla təltif edərkən açıq şəkildə söyləyib: "Qarabağda təxminən otuz il davam edən işğala Prezident İlham Əliyevin rəhbərliyi ilə 44 gün kimi qısa müddətdə son qoyulub. Bu, təkcə azərbaycanlı qardaşlarımız üçün deyil, bütün türk dünyası üçün böyük əhəmiyyət daşımaqdadır. Vətən müharibəsi nəticəsində illərdir tətbiq olunmayan BMT Təhlükəsizlik Şurasının qətnamələri həyata keçirilib. Azərbaycan bu yolla beynəlxalq ictimaiyyətin yaddaşına ədalət mesajını həkk edib. Azərbaycanın ərazi bütövlüyünü yenidən təmin etməsi türk dünyasının birliyini və bərabərliyini genişləndirib".



# Hulusi Kılıç: "Prezident İlham Əliyevin Ali Ordenlə təltif olunması türk dövlətlərinin Azərbaycan xalqına Zəfər təbrikidir"



Prezident İlham Əliyevin "Türk Dünyasının Ali Ordeni" ilə təltif olunması türk dövlətlərinin Azərbaycan xalqına tarixi Qarabağ Zəfərinin təbrikidir. Liderlər bu tarixi qərarla bir daha bütün dünyaya nümayiş etdirdilər ki, türk dünyası birdir, həmrəydir, sabitlik və inkişaf yolunda qətiyyətlidir. Çünki Qarabağ Zəfəri yalnız Azərbaycanın ərazi bütövlüyünün bərpası deyil, regionda yeni münasibətlər sferasının, sülh və inkişaf platformasının qurulması və təminatı deməkdir. Bu fikirləri AZƏRTAC-a açıqlamasında tanınmış diplomat, Türkiyənin Azərbaycandakı sabiq səfiri Hulusi Kılıç söyləyib.

Noyabrın 12-də İstanbulda keçirilmiş Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşünü ayrı-ayrı prizmalardan təhlil edən səfir deyib: "Can Azərbaycanda səfir olduğum dövrdə - 2009-cu ildə türk qapısı qədim Naxçıvanda təsis edilən Türk Şurası ötən 12 ildə böyük inkişaf yolu keçib. Qurumun bundan sonra Türk Dövlətləri Təşkilatı adı ilə fəaliyyətini davam etdirməsi beynəlxalq inteqrasiya baxımından mühüm amildir. Türk Şurası mühüm regional missiya həyata keçirib. Bundan sonra isə Türk Dövlətləri Təşkilatı eynilə Avropa İttifaqı kimi beynəlxalq missiya daşıyacaq".

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının təsis edilməsində və inkişafında Azərbaycanın tarixi xidmətlərini yüksək dəyərləndirən səfir Hulusi Kılıç əminliklə bildirib ki, Zəngəzur dəhlizinin açılması Türk Dövlətləri Təşkilatının cəlbediciliyini artıracaq və üzv ölkələrin imkanları yeni layihələrin ortaya çıxmasına təkan verəcək. Müasir dövrdə sabitlik və inkişaf bütün normal ölkələrin arzusu və ehtiyacıdır.

# Əli Əliyevin başına gələnlər niyə baş verir?

### Yaxud, VİP sədrinin yekəxanalığı başının dərdinə çevrilib

Son zamanlar anlaşılmaz fəaliyyəti ilə, hətta digər radikal müxalifət partiya sədrlərini gedirə qoyan Vətəndaş və İnkişaf Partiyasının (VİP) sədri Əli Əliyevin təşkilatında səsli-küylü istefa olayı yaşanıb. Partiyada uzun illər onunla birgə fəaliyyət göstərmiş əsas müavinlərindən olan Əliyar Şirməmmədov, sözün əsl mənasında, sədrindən bezərək VİP-in qapısını çöldən, özü də çırparaq bağlayıb. Mətbuata verdiyi açıqlamasından da görünür ki, Ə.Şirməmmədov artıq Ə.Əliyevin yekəxana davranışlarından, mədəniyyətsizliyindən, başqalarına qarşı qaba davranışlarından əməlli-başlı təngə gəlib. Hətta bu məsələdə Ə.Əliyevin radikal müxalifətin digər cinahında olan adaşı - AXCP sədri Əli Kərimlini belə kölgədə qoyduğu görünməkdədir. Çünki Ə.Əliyev kimi Ə.Kərimli də diktator, avtoritar idarəçi kimi ittihamlara tuş gəlməkdədir. Yəni AXCP-dən də istefa verənlərin əsas çoxluğu Ə.Kərimlini diktatorluqda suçlayırlar. Bu dəfə isə həmin ittihamlara məhz Ə.Əliyevin də tuş gəlməsi gözlənilən idi - özü də 30 il onunla yanaşı dayanan biri tərəfindən!

### Bir yerdə ki Əli Əliyev varsa, həmin yerdə mütləq mənada qovğaların, qarşıdurmaların, ziddiyyətlərin olması da şərtə çevrilir

Radikal fəaliyyəti qalsın bir yana, Əli Əliyevin hətta bu qədər uzun müddət yanında olan birinə qarşı hörmətsiz davranması onun istər siyasi mühitdə, istərsə də ictimai çevrədə olan nüfuzsuzluğunun sübutudur. Halbuki, Ə.Şirməmmədovun da dediyi kimi, o, Ə.Əliyevlə birgə AMİP-in yaradılmasında iştirak edib, hətta sonrakı



müddətdə Ə.Əliyevin AMİP-in o zamankı sədri Etibar Məmmədovun üzünə ağ olması vaxtında da onu yalnız buraxmayıb, sonradan VİP-in quruculuğunda iştirak edib, müavin postuna qədər yüksəlib. Üstəlik, partiyanın Siyasi Şurasına da qatılıb ki, bu da Şirməmmədovun təşkilat daxilindəki nüfuzunun olmasının göstəricisidir. Amma kimə deyirsən ki? Bir yerdə ki, Əli Əliyev varsa, həmin yerdə mütləq mənada qovğaların, qarşıdurmaların, ziddiyyətlərin olması da şərtə çevrilir. Ancaq belə bir sual da yaranır: axı necə ola bilər ki, VİP-də hamı "pis" olur, bircə Ə.Əliyev "yaxşı"? Hansı ki, Ə.Şirməmmədovun istefasından qabaq da bənzər istefalar yaşanıb və VİP sədri hər gedənə bir qulp qoymaqla məşğul olub. Çox yəqin ki, istefa verən sədr müavininin də arxasınca da necə deyərlər, "zurnanın" püflənəcəyi gözlənilir. Amma haraya qədər? Yəni VİP sədri özünü siyasi arenada "ağıllı", "tövsiyəverən" kimi göstərməklə nə vaxta qədər orada-burada çənə döyəcək? Yaxşı olmazdımı ki, bu qədər istefalardan sonra ömründə bircə dəfə dürüstlük göstərib səhvlərini etiraf etsin, qurultayını çağırsın və özünün istefa verdiyini bəyan etsin? Əlbəttə ki, olar, amma xarici dairələrin sifarişlərini kim həyata keçirsin?

### Hanı VİP-in maliyyə hesabatları?

Gizli maliyyə anlaşmalarını necə qazansın? Bax, burada digər bir amil ortaya çıxır. İstər Əli Əliyev olsun, istər Əli Kərimli olsun, istərsə də Arif Hacılı - onların hər biri partiyalarına açıq bazar kimi baxırlar. Siyasi mühacir biznesindən tutmuş daha hansı qaranlıq əməllərə qədər qanunsuz əməllərə rəvac verirlər. Adi, sıravi, hətta müavinlik postunda oturanlar isə əlləri havada qalaraq gözləyirlər ki, sədrləri bunlara nə vaxtsa məvacibdən-zaddan verəcək. Halbuki, VİP də daxil olmaqla radikal müxalifət partiyaları bircə dəfə də olsun maliyyə gəlirləri barədə ictimaiyyətə, müvafiq qurumlara sənəd təqdim etməyiblər. Yəni nəyə görədirsə, artq bunu da izah etməyə ehtiyac qalmır.

Nə isə, mövzudan yayınmayaraq qayıdaq istefa məsələsinə. Artq bu gün küçələrdə 90-cı illər deyil və 21-ci əsrin ikinci onilliyidir. Bu müddətdə inkişaf edə bilməyən Vətəndaş və İnkişaf Partiyasının boş yerə var-gəl etməsinə də belə çıxır ki, ehtiyac-filan qalmayıb. Əli Əliyevə isə "tövsiyə" vermək nə qədər xoşdursa, bizim də ona bir xeyirxah tövsiyəmiz ola bilər - getsin partiyasını buraxsın və doğru-dürüst işlərlə məşğul olsun, daha ətrafında zor-güclə saxladığı insanları özünə qarşı qaldırmasın. Bəlkə də belə daha yaxşı olardı. Amma yaxşı fikrin Əli Əliyevə nə dəxli? Onun fikirləri pisliyə və uğursuzluğa pərçimlənib, qopa bilmir. Ona görə də başının çarəsini özü qılsın. Ona görə ki, başının dərdini özünə məhz özü açır...

**Rövşən RƏSULOV**

# Polkovnik Eray Güclüer: "Regiondakı bütün hərbi risklərə görə Ermənistan dövləti məsuliyyət daşıyır"

**Ermənistanın dövlət sərhədində törətdiyi hərbi təxribat yenidən işğal üçün revanş cəhdidir. Beynəlxalq ictimaiyyət törədilən terror aktına görə təcavüzkar tərəfə etirazını bildirməli və ciddi ölçü götürülməlidir. Baş verən hadisələrə və mövcud hərbi risklərə görə bütün məsuliyyəti təcavüzkar Ermənistan dövləti daşıyır. Bu fikirləri türkiyəli hərbi ekspert, ehtiyatda olan polkovnik elmlər doktoru Eray Güclüer AZƏRTAC-a müsahibəsində deyib.**



Ermənistanın işğalçı, eləcə də məğlub və təslimçilik aktı qəbul edən dövlət olduğunu xatırladan ekspert Eray Güclüer bildirib: "Azərbaycanın qəhrəman övladları böyük igidlik göstərərək dövlət sərhədini qoruyub və düşmənə sarsıdıcı zərbə vurublar. Şəhidlərimizə Allahdan rəhmət, yaralılara şəfa diləyirik. Ermənistan rəhbərliyi unutmasın ki, son hərbi təxribatlarla erməni revanşist qüvvələri canlandırmaq, onlara ümid vermək cəhdi yenə də boşa çıxacaq. İşğal dövründən fərqli olaraq, Ermənistanın hərbi hücumları təcavüzkar tərəfin öz ərazisinə və əhalisinə böyük təhlükə yaradır. Ermənistan siyasətçiləri və erməni lobbisi yaddan çıxarmamalıdır ki, artıq 1990-cı illər deyil. O vaxt Ermənistan birtərəfli qaydada silahlandırıldı və məhz terror aktlarının gücü ilə işğalçılığa nail oldu. Hazırda bütün sərhəd boyunca üstünlük və nəzarət Azərbaycan Ordusunun tərəfindədir".

İşğaldan azad edilmiş ərazilərdə geniş yenidənqurma, abadlıq, tikinti işlərinin aparıldığı bir vaxtda yeni müharibə cəhdləri təcavüzkar tərəfə yaxşı heç nə vəd etmədiyini diqqətə çatdıran polkovnik Eray Güclüer deyib ki, Ermənistanın beynəlxalq hüquq normalarını və özlərinin də tərəfdar çıxdığı, şəxsən bu ölkənin baş naziri Nikol Paşinyanın imzaladığı bəyanatların şərtlərini pozması beynəlxalq ictimaiyyət tərəfindən sükutla qarşılana bilməz.

# "Radikal müxalifət sədrləri öz uğursuzluqlarını başqalarında axtarırlar"



***"Nəinki Vətəndaş və İnkişaf Partiyasında (VİP), bütövlükdə radikalizm və avtoritar idarəçilik üslubu olan bütün müxalifət partiyalarında narazılıqlar, etirazlar və davamlı istefalar baş verir və bu, ilk növbədə, həmin təşkilatlara uzun illər rəhbərlik edən, yenilənmə və novatorluq əleyhinə olan, özlərini partiyadaşlarına, ictimai rəyə zorən lider kimi sırıyan şəxslərin üzərinə düşən məsuliyyətdir. Yəni uğursuzluqlara səbəb olmalarının əsas baiskarları onların özləridir". Bu fikirləri SİA-ya "SƏS" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev VİP-in sədr müavini Əliyar Şirməmmədovun partiyadan ittihamlarla dolu istefasına münasibətini bildirərkən deyib.***

Siyasi ekspertin sözlərinə görə, elə istefalar olur ki, onlar yalnız partiyalardakı bir mühüm vəzifədən olur, lakin uzun müddət müxalifətdə olmuş Əliyar Şirməmmədovun yalnız sədr müavinliyindən deyil, həm Siyasi Şuradan, həm də üzvlükdən getməsi artıq belə qənaətə gəlməyə zəmin yaradır ki, VİP-in sədri Əli Əliyevin idarəçiliyi təkcə avtoritarçılıq üzərində deyil, eyni zamanda, diktatorluq üzərində cəmləşib: "Baxın, o deyir ki, VİP-dən istefası ilə bağlı üç ay əvvəlcədən müraciət edib, ancaq bu qədər müddətdə sədr onun istefasına heç bir münasibət bildirməyib. Görünür, Əli Əliyev bütün adamlarını orada zor gücünə saxlayır və əgər o diktatorluqda ittiham edilirsə, demək ki, həmin əməlini müxtəlif şantajları vasitəsi ilə həyata keçirir. Əbəs deyil ki, Əliyar Şirməmmədov vaxtilə ona sədrlik etmiş birini kobud qismində təqdim edir, eləcə də özünə hörmət edərək mədəni halda, səssiz-küysüz istefa verdiyini bildirir. Düşünürəm ki, o, bununla Əli Əliyevin səviyyəsinə enmək istəmədiyinə işarə vurub".

"Bu gün AXCP-də də, Müsavat Partiyasında da, digər radikal xarakterli siyasi təşkilatlarda eyni vəziyyət hökm sürür", deyən Bəhruz Quliyev artıq ictimai-siyasi rəyin də bu cür özündənmüştəbeh, başqalarına yuxarıdan-aşağıya baxan, birinin-digərini həzm etməyən qondarma liderlərə münasibətlərinin mənfi olduğunu bildirib: "Halbuki, Azərbaycanda yetkin siyasi baxışları olan konstruktiv mövqeli müxalifət partiyalarının təmsilçiləri də var və onlar partiyadaxili və şəxsi maraqlarına deyil, ümumi dövlətçilik maraqlarına xidmət etməyi üstün tuturlar, rəhbərlik elədikləri təşkilatlarını siyasi biznes ofislərinə çevirmirlər, sağlam tənqidləri ilə seçilirlər, ölkəmiz əleyhinə fəaliyyət göstərən bəlli xarici dairələrin sifarişlərini aldıqları gizli maddi gəlirlər hesabına həyata keçirməyə cəhdlər göstərmirlər. Təəssüf ki, Əli Əliyevin timsalında olan radikal müxalifət partiyalarının sədrləri küçə müxalifətçiliyini də özlərinin əsas siyasi idarəçilik "prinsipləri" kimi təlqin edirlər və bu fakt onların get-gedə ölkəmizin yeniləşən siyasi mühitindən təcrid olunmaları ilə nəticəsini tapır. Belə bir deyim var - öz uğursuzluğunu özündə axtarsan, uğurlu çıxış yolunu tapa bilərsən. Amma göründüyü kimi, onlar öz uğursuzluqlarını özlərində deyil, başqalarında axtarır, başqalarını ittiham etməklə özlərini təmizə çıxarmağa çalışırlar. Bu isə, göründüyü kimi, bax belə bir hadisələrlə, etirazlarla və istefalarla yekunlaşır".

**R. Nurəddinoğlu**

# "Partiya lideri gərək partiya üzvlərinə qarşı dözümlü, səbrli olsun"

***"Bəzi insanlar özlərini elə aparırlar ki, sanki onlar hökmdardır". Bu sözləri SİA-ya açıqlamasında Vəhdət Partiyasının sədri Tahir Kərimli deyib.***



Onun sözlərinə görə, partiyalarda da bu cür özünü diktator hiss edənlər var: "Şübhəsiz ki, Əliyar Şirməmmədovun istefasının səbəbi özünün də qeyd etdiyi kimi Əli Əliyev ilə siyasi baxışlarının düz gəlməməsidir. Ümumiyyətlə son dövrlər mətbuatda Əli Əliyevə qarşı partiya üzvlərinin çıxışları var. Bunun da səbəbi bildiyim qədəri ilə Əli Əliyevin "iti qovan kimi qovacam" ifadələri öz əksini tapmasıdır. Necə ola bilər ki, bir adam illərdir partiya yoldaşları olanlara qarşı bu cür ifadələr işlədə bilər? Partiya lideri gərək partiya üzvlərinə qarşı dözümlü, səbrli olsun. Görünür ki, Əli Əliyevdə bunlar yoxdur. Düşünürəm ki, bu insana baş qoşmaq lazım deyil. Çünki o özü özünü ifşa edir".

**Arzu Qurbanzadə**

***Xəbər verdiyimiz kimi, noyabrın 16-da Ermənistan Silahlı Qüvvələrinin bölmələri Kəlbəcər və Laçın rayonları ərazisində yüksəklikləri ələ keçirmək, daha sərfəli mövqelər tutmaq və əməliyyat-taktiki üstünlüyə nail olmaq məqsədilə qəfil hərbi əməliyyata başlayıb. Basarkeçər və Qarakilsə rayonlarında yerləşən sərhəd döyüş mövqeləri ilə yanaşı, canlı qüvvə, hərbi və xüsusi texnikanı cəmləşdirən erməni hərbi birləşmələri Azərbaycan ordusunun Kəlbəcər və Laçın rayonlarındakı döyüş postlarına da hücum edib. Rusiyanın nüfuzlu politolqları "Caliber" analitik mərkəzinə şərhlərində bunu kəskin təqdim edib və sərhəddəki erməni təxribatlarının baş tutmayacağını deyiblər.***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb.***

# “Rusiya və KTMT Ermənistana görə Azərbaycanla münaqişəyə girməyəcək”

## Rus ekspertlərdən Ermənistana xəbərdarlıq!

### Rusiyalı hərbi ekspert “Milli müdafiə” jurnalının baş redaktoru, İqor Korotçenko Ermənistanın növbəti hərbi təxribatını şərh edib:

- Ermənistandakı daxili siyasi mübarizəni nəzərə alsaq, bu təxribat təsadüfi deyil. Birincisi, Paşinyan soyuqqanlılıq nümayiş etdirməlidir, bunun üçün ona qarşı müxalifətdən yağan ittihamların yeni dalğasından diqqəti yayındırmaq üçün kiçik hərbi qarışıqlıq lazımdır. Ona görə də müharibə, kiçik münaqişə müxalifətin narazılığını, qəzəbini öz fiqurundan yayındırıb Azərbaycana yönəltmək cəhdidir.



İkincisi, Ermənistan artıq 1 ildir ki, Azərbaycanla sərhədin delimitasiyası və demarkasiyası prosesinə məhəl qoymur. Azərbaycanın silahlı təxribatı ilə bağlı İrəvanın bütün bəyanatları əsassızdır, yalandır və mövcud reallıqlara uyğun gəlmir. Sərhədlərin müəyyən edilmədiyi halda Ermənistanın Rusiyanı, KTMT-ni və digər beynəlxalq strukturları bu münaqişəyə cəlb etmək cəhdləri uğursuzluğa məhkumdur. Nə KTMT, nə Rusiya, nə başqa dövlətlər, nə də beynəlxalq təşkilatlar Ermənistanın ona dəstək vermək xahişlərinə baxmayacaq.

Paşinyan və Ermənistan rəhbərliyinə arzu oluna biləcək yeganə şey istənilən təxribatlardan əl çəkərək dövlət sərhədi xəttinin yaradılması prosesinə başlamaqdır.

Biz onu da başa düşürük ki, Paşinyan, əslində, planlaşdırılan üçtərəfli sammiti pozub. Sammitin pozulmasına səbəb İrəvanın qeyri-konstruktiv mövqeyi olub. Biz indi başa düşürük ki, bu, əbəs yerə edilməyib, hesablaşma hərbi təxribatlar üzərində aparılıb: üçtərəfli bəyanatda nəzərdə tutulan öhdəlikləri yerinə yetirməkdən imtina edərək, məsuliyyəti Bakının üzərinə atmaq. Şuşada törədilən terror aktını çox yaxşı xatırlayırıq ki, erməni terrorçusu həm Rusiya, həm də Azərbaycan hərbçiləri tərəfindən açıq-aşkar atışma və atəş açaraq onları qarşı-qarşıya qoymaq ümidi ilə Azərbaycanın nəzarət-buraxılış məntəqəsinə qumbaraatan atdı. Şuşadakı həmin təxribat uğursuzluğa düçar olduğu üçün İrəvan yeni bir təxribata başladı və bunun şahidi oluruq.

Sonda demək istərdim ki, İrəvanın bu cür təxribatçı hərəkətləri dağıdıcı xarakter daşıyır. Yalnız sülh, sabitlik, regionda nəqliyyat kommunikasiyalarının qarşısının alınması, minalanmış xəritələrin ötürülməsi, dövlət sərhədinin delimitasiyası və demarkasiyası, Zəngəzur nəqliyyat dəhlizinin işə salınması, erməni silahlı birləşmələrinin Qarabağ ərazisindən çıxarılması - İrəvanın etməli olduğu şey budur.




### Rusiya Siyasi Araşdırmalar İnstitutunun direktoru Sergey Markov da bildirib ki, Moskva ermənilərin naminə hərbi münaqişəyə getməyəcək:



-Ermənilər Qarabağ müharibəsini Azərbaycan-Ermənistan müharibəsi kimi deyil, Rusiya-Türkiyə müharibəsi kimi təqdim etmək üçün Rusiya ilə Türkiyə arasında münasibətlərin korlanacağı anı gözləməyi planlaşdırırlar. Bundan başqa, ermənilər Azərbaycan hərbçiləri ilə Rusiya sülhməramlılarını bir-birinə qarşı qoymaq üçün hər cür təxribat törədəcəklər. Hətta güman edirəm ki, bunun üçün rus hərbçilərinin formasını geyinəcəklər.

Amma Vladimir Putin çox gözəl başa düşür ki, Rusiya ordusunun əli ilə geosiyasi problemləri həll etməyə çalışan erməni tərəfi bu cür təxribatlarda maraqlıdır. Vladimir Putin bununla razılaşmayacaq, indi bu, mümkün deyil.

### Rusiyalı ekspert Aleksandr Artamonov son bir ayda Ermənistan-Azərbaycan sərhədində vəziyyətin qızışdığını qeyd edib:



- Azərbaycan hərbçisinin Qarabağda atəşə tutulması nəticəsində həlak olması, Azərbaycan hərbçilərinə qumbaraatanla atış açılması erməni təxribatının əyani sübutudur. Qarabağın işğaldan azad edilməsindən sonrakı əziyyətli prosesdən və Nikol Paşinyanın noyabrın 9-da Rusiyanın vasitəçiliyi ilə keçirilməsi nəzərdə tutulan üçtərəfli görüşdən imtina etməsindən danışsaq, onu da xatırlamaq lazımdır ki, hələlik, sülh müqaviləsi imzalanmayıb. belə qənaətə gəliblər ki, nəzəri cəhətdən Ermənistan və Azərbaycan fasiləsiz müharibə vəziyyətindədir. Buna əsaslanan erməni tərəfinin iddiaları mənasızdır. Biz Azərbaycan tərəfinin iddialarından yox, sülh müqaviləsinin imzalanmasından danışmalıyıq. Moskva və Bakı çoxdan buna çağırırdılar. Bunun əvəzinə Suren Papikyanın bir növ tərcümeyi-halı ilə ən adi şəxsin Ermənistanın müdafiə idarəsinin rəisi vəzifəsinə heyrətamiz təyinatı edildi. Və bundan çıxış edərək, pis ssenari gözləmək lazımdır, çünki Papikyan aqressiv hərəkətləri ilə tanınır. Ermənistan Müdafiə Nazirliyinə çox qeyri-stabil psixikası olan şəxs rəhbərlik edir. Və kömək çağırışları Rusiyanı, demək olar ki, Sovet ssenarisinə uyğun olaraq, kiçik qardaşının müdafiəsinə qalxmağa məcbur etmək cəhdindən bəhs edir. Amma Rusiya, o cümlədən KTMT çərçivəsində açıq şəkildə bildirdi ki, o, sərhəd münaqişəsinə müdaxilə etmək niyyətində deyil və etməyəcək. Ona görə də Ermənistan Azərbaycanla razılığa gəlməli və təxribatlara son qoymalı olacaq.



### Millətlərarası münaqişələr üzrə rusiyalı ekspert Yevgeni Mixaylov qeyd edib ki, mövcud vəziyyət fonunda İrəvan Moskva və KTMT-nin köməyinə arxalanmamalıdır:

-Ermənistan ərazisinin qorunması ilə bağlı növbəti çağırışlar tənqiddən başqa heç nə doğurmur. İrəvanın özü elə vəziyyət yaradır ki, KTMT-yə təzyiq cəhdi olsun və bu, birinci dəfə deyil. İl ərzində baş nazir Paşinyan noyabr razılaşmalarının həyata keçirilməsinə mane olmaqdan başqa heç nə etməyib. Ermənistanın gülümsəməsi, yeni sahiblər axtarmaq üçün arxa plana keçməsi adi hala çevrilib. Bu, Moskvanın ən ermənipərəst politoloqları və siyasətçiləri tərəfindən artıq başa düşülən açıq faktdır. Belə bir hiss var ki, biz nəhayət müttəfiq kimi Ermənistanı itiririk və bunun fonunda heç kim İrəvan üçün növbəti hərbi münaqişələrə qarışmayacaq.

*Tərcümə - Elçin Bayramlı*



***SİA Yeni Azərbaycan Partiyası Xətai rayon təşkilatının sədri, "91-lər"in üzvü, siyasi elmlər doktoru Vüqar Rəhimzadənin yap.org.az-a verdiyi müsahibəsini təqdim edir.***

# YAP tarixi missiyanı uğurla yerinə yetirir"

***- Vüqar müəllim, ölkəmizin həyatında aparıcı qüvvə olan Yeni Azərbaycan Partiyasının yaradılmasının 29 ili tamam olur. Ötən 29 il Azərbaycanın tarixində hansı mühüm hadisələrlə yadda qalıb? Bugünümüzün prizmasından o illərə nəzər saldıqda hansı təhlili aparmaq istərdiniz?***

- Yeni Azərbaycan Partiyası müasir müstəqil Azərbaycanın siyasi həyatının bütün mərhələlərində tarixi missiyasını uğurla yerinə yetirib. Partiyanın yarandığı dövrün reallıqlarına və sonrakı proseslərə nəzər yetirdikdə buna bir daha əmin oluruq. Məlumdur ki, hər bir hadisənin baş verməsi üçün zərurət olmalıdır. Müstəqilliyimizin bərpasının ilk illərində yaşananlar ölkəmizi düşdüyü çətin vəziyyətdən xilas edə biləcək bir siyasi qüvvənin yaradılmasını qarşısıalınmaz tələbə çevirdi. Bir qədər də dəqiqləşdirmə, təhlil aparsaq qeyd edə bilərik ki, Yeni Azərbaycan Partiyasının yaranması 1988-ci ildən başlayaraq ölkəmizdə cərəyan edən hadisələrin yekunu və həmin dövrdə mövcud olan ictimai-siyasi şəraitin məntiqi nəticəsi idi. Başqa sözlə desək, o dövrdə zamanın tələbi xalqın istəyi ilə vəhdət təşkil edirdi. Partiyamızın yaradılmasında fəal iştirakları və təşəbbüsləri ilə tarixə "91-lər" kimi daxil olan ziyalılarımız ümumilikdə xalqın böyük əksəriyyətinin arzu və istəklərini ifadə edirdilər. Azərbaycanın gələcək taleyini düşünən həmin insanlar ölkəni böhrandan çıxara biləcək yeni bir siyasi partiya yaratmaq təşəbbüsü ilə çıxış edərək bu məqsədlə zəngin dövlətçilik təcrübəsinə malik Liderin, Heydər Əliyev şəxsiyyətinin ətrafında birləşdilər.

Yeni Azərbaycan Partiyasının bu ilin martın 5-də keçirilən VII qurultayında dövlət başçısı, YAP-ın Sədri İlham Əliyev "91-lər"in fəaliyyətini yüksək qiymətləndirərək bildirmişdir ki, bu gün bir daha o vaxt milli maraqları hər şeydən üstün tutan "91-lər"i qeyd etmək istəyirəm. Bu gün də onların bir çoxu bizim sıramızdadır. Bundan sonra da onlar fəal işlərlə məşğul olacaqlar. Yeni Azərbaycan Partiyasının Veteranlar Şurasında və ictimai həyatda fəaliyyət göstərəcəklər. Onları Azərbaycan xalqı unutmamalıdır: "Mən Prezident kimi hər zaman onların fəaliyyətini yüksək qiymətləndirirəm. Təkcə ona görə yox ki, Heydər Əliyevə müraciət ediblər. Ona görə ki, qorxmadılar, çəkinmədilər, ölkə maraqlarını öz şəxsi maraqlarından üstün tutdular".

Qurultayda bu reallıq da xüsusi qeyd edildi ki, faktiki olaraq 1992-ci ilin noyabr ayı gənc ölkəmizin həyatında yeni bir mərhələyə yol açdı. YAP-ın yaranmasından bir il keçməmiş - 1993-cü ilin oktyabr ayında Heydər Əliyev xalqın yekdil səsi ilə Prezident vəzifəsinə seçildi və bundan sonra ölkəmizin böhrandan çıxma prosesi başladı. Dövlət başçısı bu tapşırığı verdi ki, biz bu tarixi yaxşı bilməliyik. O tarixi yaşamayanlar isə bunu öyrənməlidirlər: "Mən demişəm, bizim dərsliklərdə bu tarixlə bağlı geniş məlumat verilməlidir. O tarixin canlı şahidləri öz xatirələrini bölüşməlidirlər ki, bu tarix əbədi yaşasın. Bu müstəqillik tariximiz məhz ondan başladı, 1991-ci ilin oktyabrından yox".

***- Reallıq budur ki, YAP müxalifət partiyası kimi yaranmışdı. Müxalifət partiyası olaraq o zaman da YAP-ın Azərbaycanın xilası naminə cəsarətli təşəbbüslərlə çıxış etməsi və hər bir addımında dövlətçilik maraqlarını rəhbər tutması tarixi bir zərurət idi...***

- Bəli, tamamilə haqlısınız. Həqiqətən də Yeni Azərbaycan Partiyasının fəaliyyətinə tariximizin hansı mərhələsindən baxsaq ilk gündən qəbul etdiyi prinsiplərin dəyişməz olduğunu görərik. Bu prinsiplər hansılardır? Təbii ki, Azərbaycanın müstəqilliyinin qorunub möhkəmləndirilməsi, ərazi bütövlüyünün təmin edilməsi, demokratik, hüquqi, dünyəvi dövlət qurulması, əmin-amanlıq, ictimai-siyasi sabitlik, milli həmrəylik, güclü və sosialyönümlü iqtisadiyyat yaratmaq və sair. YAP ötən 29 ildə dəyişməz olan bu prinsiplərinə söykənərək məqsədlərinə uyğun fəaliyyət göstərib və uğurlar qazanıb. 1995-ci ildə ulu öndər Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə işlənib hazırlanan və ümumxalq səsverməsi yolu ilə həyata vəsiqə alan Milli Konstitusiyamızın qəbulundan ötən müddət ərzində ölkəmizdə keçirilən prezident, parlament və bələdiyyə seçkilərində partiyamız inamlı qələbələr qazanıb, tarixə qalib partiya kimi daxil olub. Həmçinin ötən 29 ildə Yeni Azərbaycan Partiyasının qurultaylarında qəbul edilən tarixi qərarlar ölkəmizin həyatında, gələcək inkişafında əhəmiyyətli rol oynayıb, yeni-yeni prioritetlərin müəyyənləşdirilməsinə əsas verib. 2021-ci ilin 5 mart tarixində keçirilən Yeni Azərbaycan Partiyasının VII qurultayı əlamətdar tarixi hadisə, Zəfərimizin yaratdığı reallıqlara uyğun olaraq atılan addım kimi dəyərləndirildi. Qurultayda ölkə həyatının bütün istiqamətlərində, o cümlədən YAP-ın qarşısında dayanan vəzifələr diqqətə çatdırıldı. Möhtərəm Prezidentimiz, partiyamızın Sədri cənab İlham Əliyevin vurğuladığı kimi, YAP nəinki Azərbaycanın, Cənubi Qafqazın ən böyük siyasi partiyasıdır. Partiyamızın böyük ənənələri var: "Həyat dəyişir, zəmanə dəyişir. Bir daha demək istəyirəm ki, biz ən müasir təcrübəni Azərbaycanda bütün sahələrdə tətbiq etməliyik, o cümlədən siyasi islahatlar sahəsində. Əminəm ki, partiyanın rəhbər orqanlarında təmsil olunan üzvləri fəal olacaqlar, partiyamızın fəaliyyətində öz rolunu oynayacaqlar, ümumi işimizə öz töhfəsini verəcəklər ki, partiyamız bundan sonra da ölkəmizin aparıcı siyasi qüvvəsi olaraq qalsın." Cənab İlham Əliyevin bu tövsiyələrini özünün gündəlik fəaliyyətində rəhbər tutan YAP 30 illik yubileyi ilinə yeniləşmiş formatda qədəm qoyur.

***- Ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı ölkənin siyasi mənzərəsini necə dəyişdi?***

- Birmənalı vurğulamaq olar ki, dahi rəhbər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı Azərbaycanın və Yeni Azərbaycan Partiyasının həyatında yeni mərhələnin əsasını qoydu. Bilirsiniz ki, hər bir dövlətin, xalqın həyatında xüsusi tarixlər var ki, onlar dönüş nöqtəsi kimi dəyərləndirilir. Məsələyə bu prizmadan baxsaq açıq-aydın görərik ki, Yeni Azərbaycan Partiyasının yaradılması, 1993-cü ildə ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı Azərbaycanın həyatında dönüş nöqtələri oldu. Həm də bu baxımdan ki, hər iki tarixi hadisənin ölkəmizin həyatında, gələcək taleyində öz rolu vardır. Ümummilli Lider qayıdışı ilə xilaskarlıq missiyasını uğurla yerinə yetirərək Azərbaycanı düçar olduğu bəlalardan xilas etdi, yeni Azərbaycanın gələcək uğurlarına yol açdı. Azərbaycan dövlət müstəqilliyini qorudu, bugünümüz üçün möhkəm təməlin qurulması nəticəsində müstəqilliyimizin ilk illərinin çətinlikləri aradan qaldırıldı, ölkəmiz müstəqil dövlət kimi varlığını dünyaya sübut etdi. Daxili və xarici bədxahların Azərbaycanı parçalamaq, dövlətçiliyimizi məhv etmək istiqamətindəki bütün cəhdlərinin qarşısı alındı. Ulu öndər Heydər Əliyev öz qayıdışı ilə Azərbaycana sülh, sabitlik, dirçəliş və davamlı inkişaf gətirdi. Çox qısa bir zamanda cəmiyyətin hər bir üzvündə dövlətimizin, dövlətçiliyimizin yenilməzliyi ilə bağlı böyük əminlik yarandı. Azərbaycanı dünyaya tanıtmaqla beynəlxalq aləmdə özünəməxsus yerini müəyyən edən dahi şəxsiyyətin zamanında atdığı addımların dərin mahiyyətini, bu addımların nə qədər gərəkli olduğunu partiyamızın yaradılmasının 29-cu ildönümünü qalib ölkənin vətəndaşları kimi alnıaçıq, üzü ağ qeyd etdiyimiz bu günlərdə daha dərindən anlayır, əhəmiyyətini və nəticələrini həyatımızda hiss edirik.

Ulu öndər Heydər Əliyev Azərbaycanın dünyaya Günəş kimi doğacağını bəyan edirdi. Bu tezis, bu niyyət dahi şəxsiyyətin öz Vətəninə, xalqına bağlılığını, Azərbaycanı necə görmək istəyini nümayiş etdirirdi. Ulu öndər Heydər Əliyevin dövlətimiz, millətimiz qarşısındakı xidmətləri zaman keçdikcə daha aydın görünür. Zamanı titanik fəaliyyəti, əməli işi ilə zənginləşdirən Ümummilli Liderin hələ Sovet İttifaqının bütün dünyaya meydan oxuduğu dövrlərdə ən ümdə, müqəddəs arzusu xalqın birliyinə, dünya azərbaycanlılarının həmrəyliyinə söykənən müstəqil, güclü, qüdrətli müasir Azərbaycan dövlətinin yaradılması olmuşdur. 1993-cü ildə xalqın yekdil dəstəyi ilə müstəqil Azərbaycan dövlətinin sükanı arxasına keçən Ulu Öndərin uzaqgörən müdrik siyasəti nəticəsində bu müqəddəs arzu reallığa çevrildi. Müasir müstəqil Azərbaycan dünyanın sivil, demokratik, dünyəvi dövlətləri arasında, beynəlxalq arenada öz layiqli yerini tutmaq, inkişaf etmiş ölkələr sırasında addımlamaq istəyini atdığı addımları ilə təsdiqlədi. Ən başlıcası möhkəm təməl növbəti uğurlara stimul oldu. Ulu öndər Heydər Əliyev ölkə həyatında baş verən ən xırda problemə belə həssaslıqla yanaşdı və onun həllinə çalışdı. Bir zamanlar xəyal edilən iqtisadi layihələr həyata keçirildi. 1994-cü il mayın 12-də Ulu Öndərin səyləri nəticəsində cəbhə xəttində atəşkəsin əldə olunmasından sonra elə həmin ilin 20 sentyabrında dünyanın ən nəhəng transmilli neft şirkətləri ilə çağdaş tariximizə "Əsrin müqaviləsi" adı ilə daxil olan neft kontraktları imzalandı. Ümummilli lider Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının əsas tərkib hissələri - BTC və BTƏ neft-qaz layihələrinin təməli qoyuldu. Dahi şəxsiyyətin "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" tezisi bütün sahələrin inkişafında öz aydın ifadəsini tapdı. Dövlətçiliyin əsasları yaradıldı, ordu quruculuğu istiqamətində mühüm tədbirlər həyata keçirildi. İqtisadi və siyasi islahatların vəhdətliyinin qorunması davamlı uğurlara yol açdı. Azad mətbuat formalaşıb imkişaf etdi, insan hüquq və azadlıqlarının qorunması və yeni müdafiə mexanizmlərinin müəyyənləşdirilməsi, çoxpartiyalı sistemin yaradılması, seçkilərin demokratik, beynəlxalq standartlara uyğun keçirilməsi və sair kimi demokratik təsisatların inkişafı təmin olundi. Ən əsası 1995-ci ilin 12 noyabrında Milli Konstitusiyamız qəbul edildi. Azərbaycan beynəlxalq aləmdə yerini və mövqeyini möhkəmləndirdi. İkitərəfli və çoxtərəfli çərçivədə əlaqələrin inkişafı Azərbaycan həqiqətlərinin təbliğində, erməni diasporunun Azərbaycanın ətrafında yaratdığı informasiya blokadasının yarılmasında əhəmiyyətli rol oynadı. Bir sözlə, ulu öndər Heydər Əliyev Azərbaycanın müstəqil və suveren dövlət kimi fəaliyyətini təmin edən strategiyanı işləyib hazırladı və həyata keçirdi.

***- Vüqar müəllim, müasir müstəqil Azərbaycanın tarixində 2003-cü ildən sonrakı dövrü necə xarakterizə edərdiniz? Ulu öndər Heydər Əliyev Azərbaycan xalqına 1 oktyabr 2003-cü il tarixli müraciətində ən düzgün seçim ünvanlarını göstərmişdi: cənab İlham Əliyev və Yeni Azərbaycan Partiyası...***

- Tamamilə doğru qeyd etdiniz. Həmin müraciətdə xalqımız ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı cənab İlham Əliyevə səs verərək Prezident seçəcəyi təqdirdə xalqın dəstəyi ilə görüləcək işlər açıqlandı. "Mən öz mənalı həyatımın düz 60 ilini xalqımın bu günü və sabahı ilə yaşamışam. Bunun son on ili müstəqil Azərbaycan dövlətinə xidmətdə keçib. Bu sahədə görülən işlər Sizə məlumdur, lakin mənim hələ tamamlanmamış çox perspektivli planlarım var" söyləyən ulu öndər Heydər Əliyev bunu da əlavə etmişdi ki, üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası Sədrinin Birinci müavini İlham Əliyevi dəstəkləməyə çağırıram: "O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

## *Son 18 ildə Azərbaycanın Prezident İlham Əliyevin təkmil və uzaqgörən inkişaf strategiyası nəticəsində qazandığı uğurlar bir daha Ulu Öndərin bu müraciətini sonsuz rəğbətlə qarşılayan xalqımızın seçimində yanılmadığını təsdiqləyir.*

Son 18 ildə Azərbaycanın Prezident İlham Əliyevin təkmil və uzaqgörən inkişaf strategiyası nəticəsində qazandığı uğurlar bir daha Ulu Öndərin bu müraciətini sonsuz rəğbətlə qarşılayan xalqımızın seçimində yanılmadığını təsdiqləyir. Ölkəmiz dayanıqlı və davamlı iqtisadi inkişafa nail oldu, dünyadakı nüfuzunu daha da artırdı, regionun siyasi, iqtisadi və mədəni mərkəzinə çevrildi, yeni-yeni hədəflərin gerçəkləşməsi istiqamətində inamlı addımlar atdı. Xüsusilə qürurvericidir ki, bu proses günümüzdə daha təkmil şəkildə davam etdirilməkdədir.

Dövlət başçısı İlham Əliyev "Neft kapitalını insan kapitalına çevirək!" tezisini irəli sürərək, bu məqsədə nail olmaq üçün regionların malik olduğu potensialdan səmərəli istifadənin vacibliyini bildirdi. 2003-cü ildən ötən 18 ildə regionların, eyni zamanda, Bakı və Bakıətrafı qəsəbələrin sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair 3 Dövlət Proqramının icrası başa çatıb, regionların sosial-iqtisadi inkişafına dair dördüncü proqramın icrası uğurla davam etdirilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın enerji sektorunda qazandığı uğurlar da təqdirəlayiqdir. Belə ki, 2017-ci ildə "Yeni əsrin müqaviləsi" imzalandı, 2018-ci ilə Cənub Qaz Dəhlizinin rəsmi açılışı oldu, həmin ilin iyun ayında bu unikal layihənin əsas tərkib hissələri olan TANAP, ötən ilin dekabrında isə TAP istifadəyə verildi. Azərbaycanın təşəbbüsçüsü və iştirakçısı olduğu enerji layihələri dünyanın enerji xəritəsini yenidən tərtib etdi.

İqtisadi müstəqilliyimizin təmin olunması siyasi müstəqilliyimizə geniş imkanlar yaratdı. Bu isə öz növbəsində Azərbaycanın yeni dostlar və tərəfdaşlar qazanmasını təmin etdi. Azərbaycanın iqtisadi imkanlarının genişlənməsi ordu quruculuğu sahəsində mühüm addımlara geniş yol açdı. Ordumuzun maddi-texniki bazası möhkəmləndi, döyüş ruhu yüksəldi, gənclərimizin milli ruhda tərbiyəsi prioritet oldu. Azərbaycanın beynəlxalq münasibətlər sistemində yerinin və rolunun möhkəmləndiyini də təsdiqləyən xeyli sayda faktlar sadalamaq olar. 2011-ci ildə Azərbaycanın 155 ölkənin dəstəyini qazanaraq BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi ölkəmizə beynəlxalq güvənin yüksək səviyyədə olduğunun təsdiqidir. Ölkəmiz müxtəlif sahələri əhatə edən beynəlxalq səviyyəli tədbirlərə ev sahibliyi etməklə də bu inamı nümayiş etdirir. Azərbaycan, həmçinin Qoşulmama Hərəkatının üzvüdür və quruma sədrliyi uğurla yerinə yetirir. Qeyd edim ki, 2019-cu ilin sonlarından dünyanı bürüyən koronavirus infeksiyasına qarşı mübarizə tədbirlərinə Azərbaycanın dəstəyi, eyni zamanda, COVID-19 adlı ümumbəşəri bəlanın qarşısının alınması istiqamətində irəli sürdüyü təşəbbüslər beynəlxalq aləmdə yüksək dəyərləndirilərək, ölkəmizə inamı və etimadı yüksəltdi. Bütün bunlardan əlavə, Qoşulmama Hərəkatının üzvlərinin birgə qərarı əsasında Azərbaycanın quruma sədrliyinin müddəti bir il də artırıldı. Azərbaycanın bu müddətdə irəli sürdüyü təşəbbüslər onun nüfuzunun artmasına öz müsbət təsirini göstərdi. Ölkəmizin təşəbbüsü ilə COVID-19-la mübarizədə qlobal səyləri gücləndirmək məqsədilə Türk Şurasının, Qoşulmama Hərəkatının Zirvə görüşləri, BMT Baş Assambleyasının Xüsusi Sessiyası keçirildi. Azərbaycan koronavirusla mübarizədə 30-dan artıq ölkəyə humanitar və maddi dəstək göstərdi. Digər qlobal uğurlarımızdan da fərəhlə söhbət açmaq mümkündür.

Lakin hesab edirəm ki, Azərbaycan dövlətinin daxili və xarici siyasət sahələrində qazandığı uğurların geniş təhlilinə ehtiyac yoxdur. Bu baxımdan ki, artıq 30 illik torpaq həsrətimizə son qoyulması görülən işlərin, əldə olunan uğurların aydın mənzərəsini yaradır. Zəfərimizin formulu belədir: Prezident qətiyyəti, rəşadəti ordu, xalq-iqtidar birliyi, ən əsası torpaq, Vətən sevgisi. 30 ilin işğalına 44 gündə son qoyulması xalqımızın Ali Baş Komandanın "Hücum!" əmrini səbirsizliklə gözlədiyinin təsdiqinə çevrildi.

***- Sizcə, tarixi Zəfərimiz Yeni Azərbaycan Partiyasının yaranmasından keçən 29 ildə Azərbaycanın qazandığı uğurlarla bağlı hansı ümumiləşdirməni aparmağa əsas verir?***

- Ümumiləşdirmə apararkən ilk növbədə onu vurğulamaq gərəkdir ki, Azərbaycan bu illər ərzində gücləndi, qüdrətləndi, hər an Qələbəyə hazır olan ordusunu formalaşdırdı, beynəlxalq münasibətlər sistemində yerini və rolunu möhkəmləndirdi, münaqişənin həlli üçün möhkəm hüquqi baza formalaşdı. Prezident İlham Əliyev ən yüksək tribunalardan bəyan etdi ki, bir qarış torpağımızı belə düşmənə verməyəcəyik. Sülh danışıqlarının səmərə verməyəcəyi təqdirdə hərb yolu istisna edilmədi. Vətən oğullarının qəhrəmanlığını, şücaətini unutmamaq, onların dastana dönən igidlikləri ilə daim qürur hissi keçirmək məqsədilə Anım Günü kimi təsis olunan 27 sentyabr 2020-ci ildən başlanan Vətən müharibəsi hərbi-siyasi Qələbəmizin və Ermənistanın kapitulyasiyasının təsdiqi olan 10 noyabr 2020-ci il tarixinə qədər davam edərək Azərbaycanın döyüş meydanında olduğu kimi, informasiya cəbhəsində də üstünlüyünün təqdimatı oldu. Bu Qələbəmiz kimin kim olduğunu açıqladı. Dost, qardaş Türkiyə Vətən müharibəsi başladığı gündən Azərbaycanın yanında oldu. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və qardaş ölkənin digər rəsmi şəxsləri istər müharibə, istərsə də postmünaqişə dövründə atdıqları addımlarla ölkəmizin yanında olduqlarını, dostluğumuzun sarsılmazlığını təsdiqlədilər. Bu günlərdə, daha dəqiq desəm, noyabrın 12-də dünya növbəti dəfə Azərbaycan-Türkiyə dostluğunun, qardaşlığının şahidi oldu. Belə ki, hazırda beynəlxalq aləmdə geniş müzakirə olunan, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə Türkdilli Ölkələrin Dövlət Başçıları Şurasının qərarı ilə Azərbaycan Prezidenti İlham Əliyevə Türk Dünyasının Ali Ordeninin verilməsi bunun bariz nümunəsi kimi qeyd edilir. Prezident İlham Əliyev bu ali mükafatla tarixi Zəfərimizə və türk dünyasının birliyinə şəxsi töhfələrinə görə təltif edilib. Bir sözlə, dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev adını tarixə qalib Lider, torpaqlarımızın xilaskarı kimi yazdı.

- Vüqar müəllim, bugünkü reallıqlarımızın möhkəm təməlini yaradan Ulu Öndərin irsinin təbliğində Heydər Əliyev Fondunun xidmətlərini necə şərh edərdiniz? Bir mühüm məqamı da qeyd edək ki, Yeni Azərbaycan Partiyasının VII qurultayında atılan mühüm addımlardan biri də Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın YAP Sədrinin Birinci müavini təyin edilməsi oldu. Bütün bunların fonunda idarəçilik sistemində yeniliklərin ölkəmizə qazandırdığı uğurları necə dəyərləndirərdiniz?

- Dövr, zaman dəyişir, davamlı islahatlar həyata keçirilir, idarəçilik sistemində yeniliklər tətbiq olunur. Təbii ki, bütün addımların hədəfi dövlətimizi daha da gücləndirmək, xalqın rifahını yüksəltmək, vətəndaş məmnunluğunu artırmaqdır. Bu gün qüdrətli Azərbaycanımıza hansı prizmadan baxsaq Heydər Əliyev siyasətinin uğurlarını görərik. Bu uğurlarda özünəməxsus payı və əməyi olan Heydər Əliyev Fondu yalnız dahi şəxsiyyətin irsinin təbliği ilə məşğul olmur, eyni zamanda, Azərbaycanın təqdimatına yönələn biri-birindən əhəmiyyətli layihələr həyata keçirir. Bugünümüzün əsas reallığı dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın birgə səyləri nəticəsində postmünaqişə dövrünün reallıqlarının gerçəkləşdirilməsi, ən əsası soydaşlarımızın işğaldan azad edilmiş Qarabağa və Şərqi Zəngəzura Böyük Qayıdışının tezləşdirilməsidir. Bir mühüm məqamı da nəzərə alsaq ki, Yeni Azərbaycan Partiyasının VII qurultayı Zəfərimizin reallıqlarına uyğun olaraq keçirilib və bu reallıqlara əsaslanan qərarlar qəbul olunub, Mehriban xanım Əliyevanın Yeni Azərbaycan Partiyası Sədrinin Birinci müavini təyin edilməsi onun dövlət başçısı İlham Əliyevlə birlikdə Azərbaycanımıza daha möhtəşəm uğurlar qazandırmasına əsaslanır. Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti Azərbaycan dövlətinin, dövlətçiliyinin inkişafına, qarşıdakı illər üçün müəyyənləşdirilən hədəflərin gerçəkləşdirilməsinə davamlı töhfələrində öz aydın ifadəsini tapıb. Bu gün dünyanın diqqəti Qarabağlı və Şərqi Zəngəzurlu Azərbaycana yönəlib. Şübhəsiz, biz qalib xalq olaraq birgə səylər nəticəsində qarşımızda duran hədəflərə yüksək səviyyədə çatacağıq.

Təbii ki, təkcə ölkəmizin deyil, regionun aparıcı siyasi təşkilatı olan Yeni Azərbaycan Partiyasının 29 ildə keçdiyi şərəfli yolu bir müsahibə çərçivəsində əhatə etmək mümkün deyil. Bununla belə, yekun olaraq onu deyə bilərəm ki, bugünümüzün sevinci, qüruru uğurlarımızın zirvəsində dayanan tarixi Zəfərimizdir. Bir daha Yeni Azərbaycan Partiyasının çoxminli üzvlərinin hər birini Zəfərimizin ildönümü, eyni zamanda, YAP-ın yaradılmasının 29 illiyi münasibətilə təbrik edir, VII qurultayın qərarlarından irəli gələn vəzifələrin icrasında daha fəal olmağı arzulayıram.

# Yeni Azərbaycan Partiyasının yaradılması Azərbaycanın siyasi tarixinin ən parlaq səhifələrindən biridir!

## “Azərbaycanın qazandığı çoxsaylı uğurlarında Yeni Azərbaycan Partiyasının rolu”







17 noyabr 2021-ci il tarixdə Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatı aparatında Yeni Azərbaycan Partiyasının təsis edilməsinin 29-cu ildönümü ilə əlaqədar ”Azərbaycanın qazandığı çoxsaylı uğurlarında Yeni Azərbaycan Partiyasının rolu” mövzusunda tədbir keçirilmişdir. Tədbiri giriş sözü ilə Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən Seyfəddin Əliyev acmış, Yeni Azərbaycan Partiyasının qurucusu və memarı Ulu Öndər Heydər Əliyevin və şəhidlərin əziz xatirəsi1 dəqiqəlik sükutla yad edilmişdir. Seyfəddin Əliyev çıxış edərək bu əlamətdar gün münasibəti ilə tədbir iştirtakçılarını təbrik etmiş və Yeni Azərbaycan Partiyasının çətin şəraitdə yaradıldığını diqqətə çatdırmışdır: ”Bu, həmin ərəfə idi ki, Azərbaycanda xaos hökm sürürdü, dövlət büdcəsi talan olunmuşdu, ölkədə hər addımbaşı cinayətlər törədilirdi. Müstəqil respublika elan olunsaq da, ancaq bu müstəqilliyi qoruyubsaxlamaq qeyri-mümkün bir hala çevrilmişdi. Azərbaycan xalqının çıxılmaz durumda olmasına baxmayaraq, o vaxt iqtidarda olanlar ancaq öz şəxsi niyyətlərinə, şəxsi arzularına xidmət edirdilər. Cəmiyyət ümumxalq inamına malik olan və ilk növbədə, milli birliyə, vətəndaş həmrəyliyinə əsaslanaraq ölkəni böhrandan xilas etməyə qadir olan yeni siyasi qüvvəyə ehtiyac duyurdu. Bu səbəbdən də Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında yeni siyasi partiya yaratmaq istəyi ilə 1992-ci ilin oktyabrında ziyalılar ”Səs” qəzeti vasitəsilə Ona müraciət ünvanladılar. 21 noyabr 1992-ci ildə Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi və Ulu Öndər Heydər Əliyev partiyanın Sədri seçildi”.

Yeni Azərbaycan Partiyasının yaradılmasının Azərbaycanın siyasi tarixinin ən parlaq səhifələrindən biri olduğunu deyən Seyfəddin Əliyev diqqəti ölkəmizin əldə etdiyi uğurlara qazanılan nailiyyətlərə və qələbələrə çəkərək bildirib ki, Möhtərəm Prezident İlham Əliyevin həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olmasının ən başlıca səbəbidir: ”Azərbaycan xalqı bundan sonra da öz liderinə böyük etimad göstərəcək, bir yumruq kimi dövlətimizin başçısının ətrafında sıx birləşəcək. Gələcək nəsillər 2020-ci ilin Zəfər tarixini qürurla öyrənəcəklər. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!”.

Tədbirdə Masallı rayon icra hakimiyyəti başçısının I müavini Məmmədhüseyn Hüseynov çıxış edərək Yeni Azərbaycan Partiyasının yaradılmasının 29-cu ildönümü Azərbaycan xalqı üçün möhtəşəm tarixi hadisəyə, torpaqlarımızın erməni işğalından azad edilməsi uğrunda 44 gün davam edən Vətən müharibəsində qazandığımız parlaq qələbənin, Zəfər gününün 1 illiyinə təsadüf edir. 29 illik fəaliyyəti dövründə Yeni Azərbaycan Partiyası Ümummilli Lider Heydər Əliyevin ideyalarına əsaslanaraq çox böyük və şərəfli yol keçib. Yeni Azərbaycan Partiyasının zəfərlər partiyası kimi nüfuz qazanmasını şərtləndirən əsas amil həmişə xalqın mütləq əksəriyyətinin dəstəyini qazanmasıdır.

Tədbirdə rayon ziyalılar cəmiyyətinin sədri Qardaş Fətullayev çıxış edərək bildirmişdir ki, 29 illiyini qeyd etdiyimiz, Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olan Yeni Azərbaycan Partiyası siyasi həyatda özünü təsdiqləmiş monolit bir qüvvədir. Partiya hər bir qərarında Heydər Əliyev ideyalarına, Onun milli məfkurəsinə əsaslanaraq dövlətin, xalqın maraqları zəminində öz fəaliyyətini qurub.

Tədbirdə həmçinin partiya fəallarından Cəmaləddin Ağayev, Rafiq bağırov, Dilbər İbayeva və başqaları çıxış edərək bildiriblər ki, çox zəngin, siyasi mübarizələrlə dolu şanlı tarixi olan YAP 29 illik fəaliyyəti dövründə müstəqil Azərbaycanın inkişafında son dərəcə mühüm rol oynayıb, dövlətçiliyimizin, dövlət müstəqilliyimizin qarantı olub. Sonda bir qrup gənclərə Yeni Azərbaycan Partiyasının üzvlük vəsiqələri təqdim olunub.

Rəfiqə

## Füzulidə YAP-ın 29-cu ildönümü münasibəti ilə silsilə tədbirlər keçirilir



Noyabrın 17-də YAP-ın təsis edilməsinin 29-cu ildönümü ilə əlaqədar YAP Füzuli rayon təşkilatı tədbir keçirib. SİA-nın məlumatına görə, tədbirdə çıxış edən YAP Füzuli rayon təşkilatı səlahiyyətlərini icra edən Almaz Həşimova bildirib ki, zamanın tələbi, xalqın istəyi ilə yaranan və qısa müddətdə ümumxalq partiyasına çevrilən Yeni Azərbaycan Partiyasının bütün uğurlarının arxasında xalqın inamı və bu inamdan irəli gələn dəstəyi dayanır. Xalqımız Ulu Öndər Heydər Əliyevin yaradıcısı olduğu, son 18 ildə Prezident cənab İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasının uğurlu gələcəyinə böyük inam və etimad göstərir. Həmçinin İkinci Qarabağ müharibəsində Ali Baş Komandanın uğurlu hərbi strategiyası, rəşadətli Azərbaycan Ordusunun şanlı qələbəsi sayəsində Qarabağın işğaldan azad olunması Prezident İlham Əliyev tərəfindən aparılan siyasətin düzgünlüyünü, bu siyasətin heç bir alternativi olmadığını tam sübuta yetirmişdir.

Təbirdə çıxış edən Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev bildirib ki, Yeni Azərbaycan Partiyası ədalətin zəfər çalması naminə mübarizəyə bütün ömrünü həsr etmiş görkəmli dövlət xadimi, ulu öndər Heydər Əliyevin ideyalarını həyata keçirməyə xidmət edən bir partiya olduğundan daim öz fəaliyyətində sosial ədalət prinsipini rəhbər tutmuşdur. Azərbaycanın sahib olduğu əlverişli coğrafi mövqeyini, təbii sərvətləri və intellektual potensialı xalqımızın rifahı naminə səfərbər etmək, ölkənin iqtisadiyyatını tərəqqiyə çatdırmaq kimi olduqca vacib taleyüklü məsələnin həlli hər zaman Yeni Azərbaycan Partiyasının fəaliyyətinin əsas məqsədini təşkil etmişdir.

## Samux rayonunda YAP-ın yaranmasının 29-cu ildönümünə həsr olunmuş Şahmat birinciliyinə start verilib

Yeni Azərbaycan Partiyasının yaranmasının 29-cu ildönümü münasibətilə YAP Samux rayon təşkilatında silsilə tədbirlər keçirilir. 16 noyabr 2021-ci il tarixində YAP Samux rayon təşkilatının tədbirlər planına uyğun olaraq Samux rayon Uşaq-gənclər İdman Şahmat məktəbində Yeni Azərbaycan Partiyasının yaranmasının 29-cu ildönümünə həsr olunmuş Şahmat birinciliyinə start verilmişdir. Turnirdə 80-dən çox şahmatçı iştirak edir. Turnir Swiss Maneger püşkatma proqramı ilə İsveçrə sistemi üzrə A və B qruplarında aparılır. Yarışda A və B qrupları üzrə I, II və III yerləri tutan şahmatçılar diplom və medallarla mükafatlandırılacaqlar.




*İLHAM*

## YAP-ın təsis edilməsinin 29-cu ildönümü ilə əlaqədar partiya veteranları ilə gənclərin görüşü keçirilib





Noyabrın 17-də Yeni Azərbaycan Partiyası Biləsuvar rayon təşkilatının təşkilatçılığı ilə partiya veteranları ilə gənc partiya üzvlərinin görüşü keçirildi. Tədbiri giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Biləsuvar rayon təşkilatının aparat rəhbəri Əjdər Niftiyev partiyanın yaranma tarixindən və keçdiyi inkişaf yolundan ətraflı bəhs edərək bildirdi ki, Yeni Azərbaycan Partiyası tarixi zərurətdən yaranmışdı. Bildirdi ki, 29 il öncə Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası Vətənimizin üzləşdiyi təhlükələrdən xilas etmək amalı ilə yaradıldı və partiyamızın yaradılması müstəqil Azərbaycan dövlətinin formalaşması prosesinə ciddi təsir göstərdi. Onu da qeyd etdi ki, Ulu Öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə 1993- cü ildə hakimiyyətə qayıtdı. Bu qaydış müasir Azərbaycan tarixinin həlledici dönüş nöqtəsi oldu. Tədbirdə çıxış edən partiya veteranlarından Akif Kazımov, Rafiq Cəfərov, Mirnəsib Kazımov, Qənbərəli Bağırov, Balaqardaş Kazımov partiyanın yarandığı dövr haqqında gənclərə ətraflı məlumat verərək bildirdilər ki, gənc partiya üzvlərinə öz işlərində daima dövlətə və dövlətçiliyə sədaqətli olmalarını tövsiyyə etdilər. Tədbirdə gənc partiya üzvlərindən Həzizadə Ülvi, Əliyeva Təhminə və Cəfərli Vəkil çıxış edərək ölkə Prezidenti cənab İlham Əliyevin gənclərə göstərdiyi böyük qayğıdan və onlar üçün yaradılmış geniş imkanlardan söz açdılar. Onu da qeyd etdilər ki, bu gün və bundan sonrakı fəaliyyətlərində də ölkə Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi siyasəti dəstəkləyəcəklər.

*Rəfiqə*

***Məlum olduğu kimi, ABŞ Prezidenti Co Baydenin təşəbbüsü ilə dekabrın 9-10-da "Demokratiya zirvəsi" adlı tədbir keçiriləcək və hazırda sözügedən tədbirin təbliği az qala bütün dünyada aparılmaqdadır. Lakin maraqlı məqam isə budur ki, həmin "zirvəyə" ABŞ-ın, daha dəqiq desək, Sorosun şagirdi, Ermənistanın baş naziri Nikol Paşinyan da dəvət alıb. Amma buna qədər adıçəkilən "zirvənin" demokratik dəyərlərə nə qədər aid olub-olmadığını da təhlil etmək yerinə düşərdi.***



# ABŞ-ın "Demokratiya zirvəsi", yoxsa aqressiv "demokratiya"?

ANALİTİK









Daha dəqiq desək, bu gün ABŞ-ın özünü "demokratiyanın beşiyi" adlandırmasına rəğmən illər boyu və kimlərin hakimiyyətdə olmasına baxmayaraq "demokratik hakimiyyətlər" qurmaq adı altında apardığı siyasətin nə qədər qan-qadalara səbəb olduğunu da çoxları bilir və dərk edirlər. Və bu gün əminliklə deyə bilərik ki, ABŞ-ın özünü dünyada "demokratiyanın himayədarı", "demokratiyanın bayraqdarı" kimi təqdim etməsinin ağır nəticələri istər "ərəb baharı" timsalında, istərsə də post-sovet ölkələrindəki "məxməri inqilabları" qismində - əsasən Ukraynada, Gürcüstanda, Ermənistanda gözlər önündədir. Artıq "Amerika demokratiyası" deyərkən təsəvvürdə dövlət çevrilişləri, hərbi-siyasi qiyamlar canlanır və bu da danılmaz faktlara əsaslanmaqdadır.

### Ölkənin əvvəlki prezidenti Donald Tramp heç də boşuboşuna uzunmüddətli mübarizə aparmadı və çoxsaylı saxtakarlıq faktlarını Baydenin qarşısına qoymadı...

Hətta "Amerika demokratiyasının" şaxələnməsi o qədər geniş vüsət almağa başlayıb ki, artıq onun "dəyərləri" ABŞ-da keçirilən seçki saxtakarlıqlarına da səbəb olur. Təkcə ölkədəki sonuncu prezident seçkilərinə nəzər salmaq kifayət edər ki, oradakı saxtakarlıq əməllərinin şahidinə çevirəsən. Ölkənin əvvəlki prezidenti Donald Tramp heç də boşuboşuna uzunmüddətli mübarizə aparmadı və çoxsaylı saxtakarlıq faktlarını Baydenin qarşısına qoymadı...

Artıq bu gün bir çox mütəxəssislər hesab edirlər ki, ABŞ-ın müstəqillik tarixində "demokratiya" - xalqın hakimiyyəti deyə bir anlayış ümumiyyətlə mövcud olmayıb. Bu dövlət hər zaman müəyyən bir elitar qrupun - zənginlərin hakimiyyətində olub və zaman-zaman real şəkildə "ağlarla"-"qaralara" bölünüb. Məhz bu xüsusda Bayden iqtidarını hakimiyyətə yiyələndirməkdə xüsusi əməyi olan "qanlı inqilablar mühəndisi" Corc Sorosun Ermənistanda da hakimiyyətə gətirdiyi Nikol Paşinyanın məhz bu ifadəni işlətməsini unutmamalıyıq. Erməni baş nazir xalqını iki hissəyə bölərək onları "ağlar" və "qaralar" adlandırmışdı. Görünür, buna görə də o, adıçəkilən "zirvəyə" dəvət alan ilk ölkə başçılarından biridir. Və həm də belə qənaətə gəlmək olar ki, bu gün ABŞ-ın İraqda, Əfqanıstanda, Suriyada miras qoyduğu "demokratiyası" artıq yavaş-yavaş Ermənistanda da ayaq açmağa başlayıb və hazırda bu ölkədə baş verənlərin silahlı qarşıdurmalara səbəb olacağını bəri başdan ehtimal etmək mümkündür.

### Onlar ABŞ-ın ortaya qoyacağı məsələlərə, əslində isə, tapşırıqlara qeyd-şərtsiz tabe olacaq

Ancaq daha bir maraqlı cəhət budur ki, ABŞ hər zaman öz dağıdıcı, aqressiv "demokratiyasını" məhz güc hesabına yaymağı özünə rəva bilib - ordusunu dünyanın ən ucqar, özündən minlərlə km uzaqlarda yerləşən ölkələrinə göndərməsi ilə...

Bu gün beynəlxalq aləmdəki siyasi proseslərə fəallıqla müdaxilə edən ABŞ "zirvənin" iştirakçılarının seçimində birmənalı olaraq öz maraqlarını təmin edib. Yeni Bayden administrasiyası hələ "zirvənin" anonsunu edərkən, dəvət olunacaq dövlətlərlə bağlı informasiyaların mövcud olmadığı dövrdə belə əslində potensial qonaqların bəzilərinin adları məlum olmuşdu. Onlar ABŞ-ın ortaya qoyacağı məsələlərə, əslində isə tapşırıqlara qeyd-şərtsiz tabe olacaq, Amerikanın Çin və Rusiya kimi hegemon dövlətlərə qarşı qurduğu, demokratiya pərdəsi arxasında oynadığı oyunda canfəşanlıqla alət olmağı qəbul edəcək dövlətlər silsiləsindəndirlər - Anqola, Botsvana, Namibiya, Zambiya, Fici, Marşal adaları, Vanuatu, Kipr, Ermənistan, Gürcüstan, Moldova, İraq, Nepal, Barbados, Panama, Surinam və.s.

Baxın, sən demə Vaşinqtonda, Bayden administrasiyasında kimlərsə yuxarıda adları çəkilən ölkələrin Azərbaycan, Türkiyə, Macarıstan kimi dövlətlərdən daha demokratik olması görünməkdədir. Gəlin bu ölkələrdən sadəcə bizə daha yaxından tanış olanlarla bağlı bəzi faktları yada salaq.

1. Gürcüstan. "Məxməri inqilab" vasitəsi ilə hakimiyyətə gəlmiş ölkənin keçmiş lideri Mixail Saakaşvili hazırda siyasi təqiblərə məruz qalır, onun barəsində açılan cinayət işləri bir-birini əvəzləyir. "Demokratik" ABŞ isə ona sahib belə çıxmır.

2. Ermənistan. ABŞ-ın daha bir demokratik qonşusu isə Ermənistandır. Bu ölkədə ümumiyyətlə demokratiyanın zərrəsi belə mövcuddurmu, demək çətindir, ancaq ABŞ-ın masada görmək istədiyi qonaqlardan biri məhz antidemokratik, başıpozuq və təcavüzkar, qonşularının torpaqlarına göz dikən, faşizmə abidə qoyan Ermənistandır.

Bayden iqtidarının sözügedən siyahısında yer almamaq nəinki Azərbaycan və Türkiyənin imicinə xələl gətirmir, əksinə, bu kimi ölkələrin doğru yolda olduqlarını isbatlamış olur

Lakin gəlin digər amillərə də nəzər salaq. ABŞ-ın örnək götürə biləcəyi Azərbaycan və Türkiyə kimi müstəqil xarici siyasət həyata keçirən ölkələr var ki, bu ölkələr amerikalıların "demokratik dəyərlərinin" təqdim etdiyi şərtlərlə ümumiyyətlə uzlaşmırlar və öz haqlı, müstəqul mövqelərini, milli demokratik dəyərlərini inkişaf etdirirlər.

Eləcə də Bakı və Ankara ABŞ-Rusiya münasibətlərində hər hansı bir qütbün də tərəfində dayanmır, bu dövlətlərin xarici siyasət xətti neytral mövqedən çıxış etməyi məqsədə uyğun hesab edir, balanslaşdırılmış xarici siyasətləri ilə diplomatik uğurlar qazanırlar. Çox yəqin ki, ABŞ hətta NATO-dakı müttəfiqi olsa da belə Türkiyəni özünün qondarma demokratiya məclisində görmək istəmir.

Həmçinin, Macarıstan Aİ üzvlüyünə baxmayaraq, "amerikasayağı demokratiyanı" rədd edir.

Beləliklə, fakt budur ki, ABŞ-ın "demokratiya zirvəsi"ndə təmsil olunmamaq əslində müstəqil xarici siyasət həyata keçirmək, məkrli siyasi oyunlardan kənarda qalmaq marağını sübut edir. Daha doğrusu, Bayden iqtidarının sözügedən siyahısında yer almamaq nəinki Azərbaycan və Türkiyənin imicinə xələl gətirmir, əksinə, bu kimi ölkələrin doğru yolda olduqlarını isbatlamış olur. Fakt isə budur ki, ABŞ-ın "demokratiya zirvəsi" yalnız Ermənistan kimi ölkələrin yüngül platforması ola bilər. Hətta Nikol Paşinyanın həmin "zirvədə" boyun əyərək amerikalı "demokrat" ağalarından əmrlər alacağı, onun təzim edərək oradan ayrılacağı da mümkündür. Buna isə demokratiya deyil, anti-demokratiya, hətta qərəzli siyasi monarxiya da demək mümkündür.

***Rövşən RƏSULOV***

# YAP 29 il -Böyük inkişaf yolu keçən Yeni Azərbaycan Partiyası dövlət-xalq birliyinin partiyasıdır



Müsahibimiz YAP Şabran rayon təşkilatının sədri Mehdi Balabəyovdur

## Mehdi Balabəyov: "29 il ərzində böyük, şanlı yol keçənən Yeni Azərbaycan Partiyası üzərinə düşən missiyanı ləyaqətlə yerinə yetirir"

**- Mehdi müəllim, Ulu Öndər Heydər Əliyevin yaradıcısı olduğu, hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasının yaranmasının 29 illiyini İkinci Qarabağ müharibəsinin Şanlı qələbəsinin bir ilinin qeyd olunduğu bir tarixi zamanda qeyd edirik.**

- Bəli, bu günümüzlə qürur duyuruq. Yeni Azərbaycan Partiyasının yaranmasının 29-cu ildönümü xalqımızın tarixində çox əlamətdar bir dövrə təsadüf edir. Bu gün məhz Azərbaycan Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyv cənablarının rəhbərliyi ilə 44 gün ərzində "dəmir yumruq" əməliyyatına əməl edən Güclü Ordumuzun rəşadətli əsgər və zabitlərinin rəşadəti ilə 30 illik torpaq həsrətinə son qoyaraq Azərbaycan tarixinə qələbələr yazdı VƏ ilk dəfə olaraq bu miqyasda tarixi torpaqlarını qaytarmağa nail oldu. Bu, qalibin məğlub üzərindəki - Ali Baş Komandanımız, Prezident cənab İlham Əliyevin diplomatik və qətiyyətli siyasətinin, Güclü Ordumuzun, Rəşadətli əsgər və zabitlərimizin qələbəsidir. Bu haqqın qələbəsidir. Bu Azərbaycan xalqının qələbəsidir!.

Bu gün Ali Baş Komandanımız, Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev cənablarının diplomatik siyasəti ilə həm siyasi meydanda, həm də döyüş meydanında qalibdir. Azərbaycan xalqı öz Liderinin - Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək bütün dünyaya öz gücünü, mətinliyini, mübarizliyini nümayiş etdirdi. Ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyev böyük fədakarlıqla və qətiyyətlə YAP-ın qurucusu Heydər Əliyev siyasi kursunu uğurla davam etdirərək, 9 noyabr tarixində Azərbaycan xalqına müraciətində də dediyi kimi, ata vəsiyyətini yerinə yetirdi, son 18 ildə həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası nəticəsində işğalda olan torpaqlarımızı azad etdi, xalqın inamını özünə qaytardı. Ən nəhayət, əldə olunan qələbə həm də dövlət-xalq-ordu birliyinin bəhrəsidir. Və bu gün Yeni Azərbaycan Partiyası da məhz xalqın birliyinin partiyasıdır. Ölkəmizin siyasi həyatında aparıcı rol oynayan Yeni Azərbaycan Partiyasının yaranması və təşəkkül tapması milli tariximizdə görkəmli yer tutan Ulu Öndər Heydər Əliyevin şərəfli adı ilə bağlıdır. Yeni Azərbaycan Partiyasının tarixi Azərbaycanın müstəqillik dövrünün tarixi ilə, demək olar ki, üst-üstə düşür. Azərbaycan özünün müstəqilliyini 1991-ci il, oktyabrın 18-də bəyan edib. YAP isə 1992-ci il, noyabrın 21-də yaradılıb. Həmin illər Azərbaycan üçün ən ağır və məsuliyyətli dövr idi. Həmin vaxtlar dövlət müstəqilliyin qorunub saxlanması üçün qətiyyətli bir şəxsin ölkə rəhbərliyinə gətirilməsi zəruriyyəti yaranmışdı. Bu mənada, YAP-ın yaranması tarixi zərurət kimi qeyd olunmalıdır. Yəni, YAP-ın yaranmasını tarixi zərurət və Azərbaycan xalqının taleyi diqtə edirdi. 1992-ci ildə xaos, anarxiya vəziyyətində olan bir ölkəyə xalqı bu çətin vəziyyətdən çıxarmaq bacarığı olan güclü bir liderin ölkə rəhbərliyə gətirilməsi əsas şərt idi. Azərbaycan xalqı bu məsələdə Ulu Öndər Heydər Əliyev fenomeninin üzərində dayandı. Çünki xalq nicat yolunu yalnız Heydər Əliyevin hakimiyyətə tarixi qayıdışında gördü. Elə həmin vaxtlar 91 nəfər Azərbaycan ziyalısı Naxçıvana, Ulu Öndər Heydər Əliyevə müraciət ünvanlamışdı. Bu müraciət bütövlükdə Azərbaycan xalqının çağırış ifadəsi idi. Həmin müraciətdə Heydər Əliyevin yeni yaradılacaq partiyaya - Yeni Azərbaycan Partiyasına rəhbərlik etməsi xahiş edilirdi. Bu, heç də asan bir məsələ deyildi. Çünki Azərbaycanda köklü islahatlar aparılmalı, xalqın pozulmuş, tapdalanmış hüquqları bərpa edilməli və güclü vətəndaş cəmiyyəti qurulmalı idi. Bütün sahələrin inkişafı istiqamətinə çox ciddi addımlar atılmalı, dövlətçiliyin bərpası və qorunub saxlanması yükünü öhdəsinə götürməyi bacaran qətiyyətli bir fenomenal şəxsiyyətə böyük ehtiyac var idi. Dövlətçilik məfkurəsini gücləndirmək, milli dövlətçilik ideologiyasını işləyib hazırlamaq və onu reallaşdırmaq həmin dövrlər üçün güclü siyasi iradə, bacarıq tələb edirdi. Bunların öhdəsindən layiqincə gələ biləcək şəxs Heydər Əliyev ola bilərdi. Ona görə də 1992-ci ilin noyabrın 21-də YAP-ın təsis konfransının keçirilməsi təsadüfi hadisə deyildi, bu xalqın istəyi ilə yaradılan bir siyasi partiya idi.

**- Həmin dövrlərdə YAP-ın yaradılması üçün çox maneələr törədilirdi. Lakin xalqın təkidli tələbi bütün bu maneələri aradan qaldırdı...**

- Əlbəttə, o dövrlər YAP-ın yaradılması üçün maneələr törədilirdi. Həmin vaxtlar xalqımızın dahi oğlu, tanınmış dövlət xadimi Ümummilli Lider Heydər Əliyev o dövrdə blokada şəraitində olan Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri idi. Ulu Öndər ziyalıların müraciətini qəbul etsə də, Onun Bakıya gəlməsinə o zamankı səriştəsiz şəxslərin rəhbərlik etdiyi hakimiyyətin maneələr yaratması ucbatından, partiyanın yaradılmasını istəyən insanların bir hissəsi Naxçıvana gedərək, partiyanın təsis konfransını orada keçirməyə nail oldular. Yenə də xalqın Heydər Əliyevə olan inanmını bəzi qüvvələr sarsıda bilmədi. Naxçıvanda yaradılan YAP-ın təsis konfransında Ümummilli Lider Heydər Əliyev yekdilliklə yeni yaradılan partiyanın Sədri seçildi. Deyərdim ki, Azərbaycan xalqı artıq nicat yoluna qədəm qoydu. Çünki qısa zaman kəsiyində YAP siyasi hakimiyyətə gəldi. Bunun əsas qayəsi inam və etibar idi. YAP öz yaranışı ilə Azərbaycanın ictimai-siyasi fikir, siyasi fəaliyyət və mübarizələr tarixinə yeni bir keyfiyyət halı gətirdi. Qarşıda ölkəni çətin, böhran vəziyyətindən çıxarmaq kimi ciddi məqsəd var idi. Bu partiya Azərbaycanın çağdaş dövr tarixində ilk konstruktiv müxalifət partiyası nümunəsini göstərdi. Onun siyasi nüfuzunun, siyasi gücünün və populyarlığının bir səbəbi də budur. Dahi şəxsiyyət Heydər Əliyevin 1993-cü il prezident seçkilərdə xalqın səsini qazandı. Bundan sonra Azərbaycan xalqı artıq tam əmin oldu ki, hakimiyyət sükanı etibarlı əllərdədir. Heydər Əliyevin hakimiyyətə tarixi qayıdışı və qətiyyətli addımları nəticəsində çox keçmədi ki, ölkə böhran vəziyyətindən çıxarıldı. Bütün sahələrin inkişafına xüsusi diqqət yetirildi. Xalqın sabahına hesablanmış mütərəqqi siyasət yeridildi. YAP Azərbaycan dövlətçiliyinin, onun müstəqilliyinin, bu gününün və sabahının qarantı deməkdir. Ona görə də, bu gün Yeni Azərbaycan Partiyasının keçdiyi yola nəzər salanda, görürük ki, inanılmaz dərəcədəki inkişaf hansı keşməkeşlərdən keçib. Bu, bir daha onu deməyə əsas verir ki, xalq öz seçimində yanılmadı. Xalqın düzgün seçimi yeni və qüdrətli Azərbaycanın yaranması ilə nəticələndi. Ona görə ki, YAP üzərinə düşən missiyanı uğurla həyata keçirdi və bu gün də bu inkişaf göz önündədir.

**- Mehdi müəllim, Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqının firavan gələcəyinə hesablanan mütərəqqi siyasi kursu ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Həmin zamanı necə xarakterizə edərdiniz?**

- Bəli, bu siyasi kursu davam etdirmək asan məsələ deyil. Çünki burada Heydər Əliyev ideologiyası, məfkurəsi var. Bu ideologiya, məfkurə və dövlətçilik fəlsəfəsi çox zəngindi. Bu siyasi kursu layiqincə davam etdirmək böyük məsuliyyətdir. Bu gün birmənalı şəkildə demək olar ki, ölkə Prezidenti İlham Əliyev bu kursun ən layiqli davamçısıdır. Ona görə də bu gün Yeni Azərbaycan Partiyası ümumxalq partiyasına çevrilib.

Əlbəttə, bunun başlıca səbəblərindən biri də birbaşa dövlət başçımız, partiyamızın Sədri İlham Əliyevin xalq arasındkı böyük nüfuzudur. Çünki partiyamızın Sədrinin şəxsi keyfiyyəti, Onun Heydər Əliyev ideyalarına sonsuz sədaqəti, Azərbaycan dövlətinin siyasi və iqtisadi nüfuzunun artmasına yönələn fəaliyyəti partiyamızın xalq qarşısındakı hörmət və inamını artırır. Bizi sevindirən, fərəhləndirən amil də budur ki, artıq hər bir YAP üzvü bilavasitə Heydər Əliyev ideyalarına, bu ideyaların inkiaf etməsinə sədaqətlə xidmət edir. Bu sədaqət hazırda Prezident İlham Əliyev siyasəti kontekstində bütün məziyyətləri ilə sübuta yetirilməkdədir.

**-Mehdi müəllim, bildiyimiz kimi, bu ilin mart ayının 5-də Yeni Azərbaycan Partiyasının VII qurultayı keçirildi, Vətən savaşındakı Şanlı Qələbədən sonra və ölkədə aparılan islahatlar fonunda qurultayın baş tutmasına fikirləriniz.**

- Bildiyiniz kimi, bütün dövlətlərdə hakimiyyətdə olan siyasi partiyaların qəbul etdiyi qərarlar ölkənin siyasi həyatına birbaşa təsir edir. Bu baxımdan, Yeni Azərbaycan Partiyasının martın 5-də keçirilən VII qurultayı təbii olaraq ölkə ictimaiyyətinin diqqət mərkəzində idi. Həmçinin Vətən savaşındakı Şanlı Qələbədən sonra və ölkədə aparılan islahatlar fonunda qurultayın baş tutması, həm də ölkənin gələcək inkişafı baxımından da önəmli hadisə sayılırdı. Hakim partiyanın budəfəki ali toplantısı vacib qərarların qəbul edilməsi ilə yadda qaldı. Partiyanın yeni Nizamnaməsi qəbul olundu, 40 nəfərdən ibarət tərkibdə İdarə Heyəti seçildi, 6 siyasi partiyanın YAP-a qoşulmasına dair qərar qəbul edildi. Bununla da ölkənin siyasi həyatında tamamilə yeni bir strategiyanın əsası qoyuldu. Ona görə də deyə bilərik ki, bu qurultay demokratik ənənələrin inkişafına ciddi töhfə verəcək.

Prezident, Yeni Azərbycan Partiyasının Sədri İlham Əliyev qurultayda geniş, dərin məzmunlu və proqram xarakterli çıxış edərək əldə edilən uğurları, aparılan hərtərəfli islahatları dəyərləndirdi və gələcək fəaliyyətlə bağlı istiqamətləri, konturları göstərdi. Azərbaycanın genişmiqyaslı islahatlar aparan ölkə olduğunu bildirən Prezident öncə son 3 il ərzində həyata keçirilən mütərəqqi işləri yüksək qiymətləndirərək partiyanın VII qurultayının keçirilməsi zərurətini yaranmış yeni reallıqların tələbi kimi dəyərləndirdi. Bu gün sıralarında 760 580 insanı birləşdirən YAP-ın fəaliyyəti, ideyaları, apardığı siyasət göz önündədir. Gələn il yaranmasının 30 illiyi tamam olacaq partiya ötən müddət ərzində uğurla inkişaf edib və bütün seçkilərdə - həm parlament, həm prezident seçkilərində böyük səs çoxluğu ilə qalib gəlib. Bu gün Azərbaycanda YAP-a rəqib ola biləcək hər hansı bir siyasi qüvvə mövcud deyil. Prezidentin də söylədiyi kimi, YAP sözün əsl mənasında ümumxalq partiyasına çevrilib. Cəmiyyətimizin bütün təbəqələri hakim partiyada birləşib. YAP nəinki Azərbaycanın, Cənubi Qafqazın ən böyük siyasi təşkilatıdır. Partiyanın böyük ənənələri var.

VII qurultayda xeyli yeniliklər baş verdi. Ona görə də deyə bilerik ki, partiya yeniləşmiş formatda daha fəal olacaq. Cənab İlham Əliyev partiyanın rəhbər orqanlarında yeni təmsil olunanlar qarşısında tələblər də qoydu. Bildirdi ki, onlar partiyanın bundan sonra da ölkənin aparıcı siyasi qüvvəsi olaraq qalması üçün fəal olmalı, partiyanın fəaliyyətində mühüm rol oynamalı, ümumi işlərə töhfə verməlidirlər.

Bir sözlə, bu gün Prezident İlham Əliyev cənablarının həyata keçirdiyi mütərəqqi islahatlar xalq tərəfindən yüksək qiymətləndirilir. Bu da onu deməyə əsas verir ki, Azərbaycanda bundan sonra da uzunmüddətli, dayanıqlı inkişaf təmin olunacaq. Çünki görülən işlər və Prezident İlham Əliyevin yürütdüyü qətiyyətli, prinsipial, uzaqgörən siyasət yeganə düzgün siyasətdir. Və bu gün özündə 750 minə yaxın insanı birləşdirən partiyamızın cənab İlham Əliyevin rəhbərliyi ilə gələcəkdə daha böyük qələbələr qazanacağı şübhəsizdir. Partiyamız Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın daha da inkişaf edəcəyinə inanır və bu yolda özünün töhfələrini verəcəkdir.

**RƏFİQƏ KAMALQIZI**

# "Doktorantların, tələbələrin təqaüdlərinin qalxması nəzərdə tutulur"



"Vətən müharibəsində Azərbaycanın əldə etdiyi zəfər yeni geo-strateji və iqtisadi reallıqlar yaratmağa başladı. Bildiyimiz kimi əlimizdə uzun illər istismar edilmiş, darmadağın edilmiş ərazilər var və bu ərazilərə yeni xərclər, infrastrukturun bərpası, iqtisadi aktivliyin təmin edilməsi zərurəti var. Bu baxımdan da növbəti ilin büdcə layihəsində hal-hazırda müzakirə edilən məsələlər, sosialyönümlü xərclər təşkil edilécək". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı Asif İbrahimov deyib.

Onun sözlərinə görə, işğaldan azad olunmuş ərazilərdə müdafiə məsələləri həll olunmalıdır: "Bu da dövlət büdcəsindən maliyyələşən təşkilatların ödənişlərinə sərf olunacaq. Eyni zamanda İkinci Vətən müharibəsi zamanı yaralanmış əsgərlərimizin və şəhid ailələrinə yardım göstərilməsi üçün sosial xərclərin artırılması üstünlük təşkil ediləcək. Bundan başqa gələn il minimum əmək haqqının məbləğinin artırılması, o cümlədən büdcədən maliyyələşən təşkilatların əmək haqqının ödənilməsi, əmək haqqı sistemlərinin təkmilləşdirilməsi, ünvanlı dövlət sosial yardımlarının təyin edilməsi məqsədilə yeni yanaşmalar mövcud olacaq. Bundan başqa doktorantların, tələbələrin təqaüdlərinin qalxması nəzərdə tutulur. Bu da yeni qəbul olunan büdcəyə baxılması zərurəti yaradır".



Asif İbrahimov fikirlərinə davam edərək həmçinin qeyd edib ki, büdcənin xərcləri 29 milyon civarında müəyyən edilmişdir: "Büdcə gəlirləri isə təqribən 26 milyon civarında təyin edilmişdir. Dünya bazarında neftin və qazın qiymətlərinin artması ilə Azərbaycan Dövlət Neft Fonduna vəsaitin daxil olmasının sayı artıb. Düşünürəm ki, bu il maliyyə mənbələrində heç bir problem olmayacaq. Bu yeni büdcə layihəsinin tətbiqi işğaldan azad olunmuş ərazilərdə iqtisadi aktivliyin artırılmasına, yeni infrastruktur layihələrinin həyata keçirilməsinə və əhalinin daha tez bir müddətdə qayıtmasını sürətləndirəcək".

**Arzu Qurbanzadə**

# Rusiyalı ekspert: "Ermənistanda ikinci hərbi baza açmaq lazımdır"




Rusiyalı ekspert, MDB ölkələrinin Qafqaz İnstitutunun rəhbəri Vladimir Yevseyev noyabrın 16-da Rusiyanın nəyə görə Ermənistana hərbi dəstək göstərməməsinin səbəblərini şərh edib. Yevseyev "Radio 1" efirinə müsahibəsində bildirib ki, hazırda Ermənistan silahlı qüvvələrində bərpa olunmaq tələbləri var və buna görə də irimiqyaslı hərbi əməliyyatlara hazır deyil.

Onun sözlərinə görə, Qarabağda münaqişənin yenidən başlayacağı halda Rusiya Ermənistanın tərəfində döyüşməkdən imtina edəcək, eyni zamanda ona görə də ki, erməni hakimiyyəti regionda gərginliyin azaldılması üçün heç bir addımlar atmır.

Yevseyev izah edib ki, Rusiyanın Ermənistanla ümumi sərhədləri olmadığı üçün orada - yəni Ermənistan sərhədlərində ikinci hərbi bazanın yaradılması məqsədəuyğundur. "Gümrüdəki Baza Ermənistanın Azərbaycandan müdafiəsi üçün nəzərdə tutulmayıb. Daha əvvəl bu, ümumiyyətlə təklif olunmurdu", deyə rusiyalı ekspert bildirib.

Qeyd edək ki, Ermənistan noyabrın 16-da Rusiyadan Azərbaycandan müdafiə olunmaq üçün hərbi dəstək istəmişdi və Moskva İrəvana müsbət cavab verməyərək, münaqişənin diplomatik yolla həllində dəstək göstərə biləcəyini bəyan etmişdi.

**Rövşən RƏSULOV**

# "ABŞ-da toplanacaq sammitin demokratiya ilə heç bir əlaqəsi yoxdur"



***"Gələn ayın əvvəllərində video-konfrans formatında keçirilməsi planlaşdırılan "Demokratiya sammiti"nə hazırlıq prosesində baş verənlər ABŞ-ın nə qədər ədalətsiz mövqe tutduğunu, "ikili standart" siyasəti yeritdiyini bir daha bütün dünyaya nümayiş etdirdi". Bunu "Səs" qəzetinə açıqlamasında ANAP-ın sədri Abutalıb Səmədov bildirib.***

Onun sözlərinə görə, Sammitə dəvət olunanların siyahısı rəsmi qurumlar tərəfindən açıqlanmasa da, "Politiko" qəzeti vasitəsilə ictimai rəyə sızdırıldı və biz demokratiyanın "fontan vurduğu" yeni dövlətlərlə tanış olmaq imkanı əldə etdik: "Məlum oldu ki, ABŞ-ın yeni administrasiyasının gözündə Azərbaycan, Türkiyə, Macarıstan demokratiya standartlarına cavab verən ölkələr deyil, ancaq, hakimiyyətdə olan qüvvələrin siyasi rəqiblərinə divan tutduğu Ermənistan, bütün dünyanın ən böyük islahatçı elan etdiyi M.Saakaşviliyə "qan uddurduğu" Gürcüstan nümunəvi demokratik dövlətlərdir. Bunların yanında təbii ki, onlar qədər demokratiyaya, insan azadlıqlarına "dəyər" verən ölkələr dayanır və məlum olur ki, İrak, qardaş Pakistan, Konqo Demokratik Pespublikası, hətta dünyanın müstəqil dövlət kimi tanımadığı Tayvan ABŞ-ın gözündə demokratik dövlətlərdir və biz onlardan nümunə götürməliyik.

A.Səmədov bildirdi ki, əslində, hamıya məlumdur ki, dekabrın 9-10-da ABŞ-da toplanacaq sammitin demokratiya ilə heç bir əlaqəsi yoxdur: "Bu ABŞ-a "biət" edənlərin, onun hər sözünü "Quran ayəsi" sayanların, dost olduğunu hər gün "sübut edənlərin" toplantısıdır.

Təbiidir ki, belə "yığnaqda" müstəqil siyasət yeridən, "demokratik" dünyanın bütün təzyiqlərinə baxmayaraq işğal olunmuş ərazilərini azad etmək cəsarəti göstərən Azərbaycana yer yoxdur. Az qala hər gün ABŞ-ın ədalətsiz davranışı ilə üzləşən, F-35 proqramından çıxarılan və ödədiyi 1,4 milyard dollar halal pulunu geri ala bilməyən, "müttəfiqinin" tətbiq etdiyi sanksiyalar nəticəsində ağır duruma düşən və bu münasibətin nəticəsi olaraq Rusiyaya yaxınlaşmaq məcburiyyətində qalan qardaş Türkiyənin sammitə dəvət olunmaması da təmamilə normal qarşılanmalıdır. Türkiyə müstəqil, cəsarətli siyasəti ilə hamının rəğbətini qazanmış ölkədir və ABŞ-ın bu cür dövlətlərə "allergiyasının" olduğu heç kimə sirr deyil. Türk dünyasının artan nüfuzu, güclənməkdə olan birliyi, burada Türkiyə və Azərbaycanın aparıcı rol oynaması təbii ki, ABŞ-ı qane etmir. İki qardaş dövlətin dəvət almamasının kökündə həm də bu amil dayanır. Macarıstanın cəzalandırılması da çox güman ki, onun türk birliyinə yaxınlaşmaq cəhdləri ilə bağlıdır.

Nəhayət, hamıya yaxşı məlumdur ki, bu toplantı "demokratiya sammiti" deyil, ABŞ-ın özünü dünyaya nümunəvi dövlət kimi təqdim etməsinə, özünü reklam etməsinə yönəlmiş növbəti, uğursuz tədbirdir. Bu "sammit" demokratik dövlətlərin deyil, ən yaxçı halda ABŞ-ın əl işarəsi ilə qalxıb-oturanların qlobal kooperasiyasını təmin etməyə yönəlib və nəzərdə tutulduğu kimi bir il sonra qəbul olunmuş qərarların icrası haqqında "hesabat" baş tutmayacaq".

**Gülyana**

***Son günlər Azərbaycan-Ermənistan sərhədində baş verən təxribatların baş verməsi bir daha işğalçı ölkənin faşist xislətli cinayətkar ölkə olduğunu göstərir. Ermənistan dövlət sərhədində növbəti dəfə təxribat törətməyə cəhd edib. Belə ki, Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin verdiyi məlumata görə noyabrın 16-da dövlət sərhədində Ermənistanın təxribatları nəticəsində baş verən döyüş əməliyyatları zamanı 7 nəfər həlak olan hərbi qulluqçularımız şəhid olub, 10 nəfər yaralanıb.Allah şəhid olan hərbi qulluqçularımızın ruhunu şad etsin, yaxınlarına səbir versin.***



# Yaranmış vəziyyətə görə bütün məsuliyyət Ermənistanın üzərinə düşür

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin verdiyi məlumata görə noyabrın 16-sı axşam saatlarından etibarən Azərbaycan-Ermənistan dövlət sərhədində vəziyyət sabitləşib. Ermənistanın dövlət sərhədində törətdiyi təxribat və hərbi avantüra tam iflasa uğrayıb. Hal-hazırda əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarında, görüşlərində, müsahibələrində dəfələrlə vurğulayıb ki, yaranmış vəziyyətə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür. Elə bu günlərdə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişellə telefon danışığı zamanı Azərbaycan Prezidenti bildirib ki, dəfələrlə Ermənistan tərəfi Şuşa, Laçın, Kəlbəcər istiqamətində hərbi təxribatlara əl atıb və Ermənistanın son genişmiqyaslı hücumu bu gün baş verib. Dövlətimizin başçısı Azərbaycan tərəfdən yaralıların olduğu qeyd edərək, Ermənistanın təxribatlarına adekvat cavab verildiyini vurğulayıb.

Ağır durumda olan Ermənistan niyə təxribata əl atır?

Azərbaycan istər iqtisadi göstəricilərinə görə, istər silahlı qüvvələrinin gücünə görə, istərsə də diplomatik uğurlarına görə Ermənistanı dəfələrlə üstələyir. Belə bir vaxtda Ermənistanın cəbhə xəttində təxribata getməsi maraq doğurur. Rəsmi İrəvan anlayır ki, heç bir halda yeni bir savaş onun maraqlarına cavab verməyəcək. Müharibə başlayarsa, Ermənistanın ağır məğlubiyyətə uğrayacağı bir aksiomadır. Belə olan halda Ermənistanı çox çətin duruma salacaq təxribata getməyə nə vadar etdi?

Aydın məsələdir ki, burada əsas məqsəd Azərbaycan Ordusunun mövqelərini ələ keçirmək, həmçinin canlı qüvvəyə və hərbi texnikaya zərər yetirmək olub. Lakin Azərbaycan Ordusunun həyata keçirdiyi əks-tədbirlər nəticəsində düşmən geri oturdulub, onun canlı qüvvəsinə və hərbi texnikasına ciddi zərər yetirilib. Və belə bir durumda dövlət sərhədində gərginlik yaradan Ermənistan bütövlükdə regionu çalxalamaq, suyu bulandırmaq, öz siyasi spekulyasiyalarını həyata keçirmək üçün konfliktdən maksimum yararlanmağa çalışan xarici qüvvələri regiona cəlb etmək və özünə daha çox havadar qazanmaq istəyir. Eyni zamanda, Ermənistan bu hərəkətləri ilə iki ölkənin dövlət sərhədinin delimitasiyası və demarkasiyası üzrə danışıqlardan açıq-aşkar imtina edir. Müəyyən xarici dairələrin erməniləri qızışdırması da istisna deyil. Ölkənin sərhədində bu cür təxribatların baş verməsi çirkin niyyətlərdən xəbər verir. Fransanın Ermənistandakı səfirinin "münaqişə hələ bitməyib, status məsələsinə baxılmalıdır" kimi bəyanatları revanşist qüvvələri daha da cəsarətləndirib. Bütün bunların Avropa İttifaqının Ermənistana 2,6 milyard avroluq yardım paketi ayırmasından sonra daha geniş vüsət alması da təsadüfi deyil. Ermənistan dolayı yolla Rusiyaya "daha sənə ehtiyacımız yoxdur" demək istəyir. Əks təqdirdə, Paşinyan Putinin zəmanəti altında imzaladığı Bəyannaməni pozmağa cürət etməz, Rusiya prezidentinə qarşı belə bir quduruğan da davranış sərgiləməzdi.

Ermənistanın istədiyi odur ki, vaxtilə Azərbaycan kimi müharibəni deyil, döyüşü uduzduğunu iddia etsin. Yəni: "Biz döyüşü uduzmuşuq, amma müharibə bitməyib və bundan sonra problemin hərbi yolla həlli yoxdur".Baş verənlər bir daha onu sübut edir ki, Ermənistan sülh müqaviləsini imzalamaqdan boyun qaçırır və tez-tez atəşkəsi pozur ki, qoy, bütün dünya həqiqətən də müharibənin bitmədiyini görsün və məsuliyyətdən yayınmaq üçün isə dərhal bütün diplomatik və informasiya resurslarını işə salaraq, atəşkəsi Azərbaycanın pozduğunu dünyaya car çəkir.

"Görünür, İkinci Qarabağ savaşı hələ ki, hər kəs üçün dərs olmadı. Əgər belədirsə, biz dərsini yenidən verməyə hazırıq".

Prezident İlham Əliyevin dediyi kimi: "Müharibə başa çatıb. Yəni, erməni xalqı da bu vəziyyətlə barışıb. Erməni rəhbərliyi də məğlubiyyətlə barışıb və Ermənistanda keçirilmiş son parlament seçkiləri bunu göstərdi. Tarixdə görünməmiş bir mənzərədir ki, məğlub edilmiş rəhbərlik, yenidən xalqdan səs alır. Belə olan halda, əlbəttə ki, Ermənistanı silahlandırmaq heç bir məntiqə sığmır. Biz hələ ki, bunu görmürük, müşahidə etmirik. Amma Rusiya tərəfindən bəzi açıqlamalar oldu. Bir neçə gün bundan əvvəl Rusiya müdafiə naziri Ermənistan müdafiə naziri ilə görüş zamanı söyləmişdir ki, Ermənistana Rusiya silahlarının göndərilməsi prosesi başlamışdır. Bu, çox narahatedici bir məsələdir. Həm də Ermənistanın yeni müdafiə naziri çox məsuliyyətsiz açıqlamalar verdi ki, əgər Azərbaycan tərəfi Ermənistan sərhədini bir santimetr pozsa, o zaman onlar atəş açacaqlar. Yəni, görünür, İkinci Qarabağ savaşı hələ ki, hər kəs üçün dərs olmadı. Əgər belədirsə, biz dərsini yenidən verməyə hazırıq. Ona görə biz ümid edirik ki, Rusiya Ermənistanı silahlandırmayacaq. Çünki buna ehtiyac yoxdur".

Göründüyü kimi, real vəziyyət belədir. Dövlətimizin başçısının dediyi kimi, "Əgər ermənilər öz çirkin planlarından əl çəkməsələr, onlar üçün çox ağır nəticələr olacaq". Ermənilər bu çirkin əməlləri ilə ən ağır nəticə ilə üzləşəcəklər və Ermənistan üzərinə götürdüyü bütün öhdəlikləri yerinə yetirməyə vadar ediləcək. Çünki bizim Prezidentimiz yalnız haqq ədalət tərəfdarı kimi çıxış edir və dünya dövlətləri də bunu bilir. Tarixən ədalət qalib gəlib, Azərbaycan xalqı da düşməni yerində oturtmağa qadirdir. Ermənistanın isə qeyri-adekvat davranışı ilk növbədə onun özü üçün zərbədir. Və Ermənistandakı revanşistləri nəzərə almasaq, digər vətəndaşlar artıq dərk edirlər ki, Qarabağ onların deyil və özgə torpaqları uğrunda ölmək ağılsızlıqdır. Ona görə də əsgər anaları-ataları hər gün müxtəlif şəhər və rayonlarda ayağa qalxıb övladlarının Qarabağ istiqmətində hərbi xidmətə aparılmasına qarşı üsyan edirlər. Ermənilər yaxşı anlayırlar ki, güvəndikləri dövlətin Azərbaycanla istənilən formada mübarizə aparmaq gücü yoxdur. 30 il ərzində qurulan və "keçilməz sədlər" adlandırılan müdafiə sistemlərinin 44 gün ərzində darmadağın edilməsi bunun bariz göstəricisidir. Bundan sonra hər hansısa bir təxribat olarsa, "dəmir yumruğun" növbəti zərbəsini alacaqlar. Ona görə də işğalçı, məğlub Ermənistan və onun havadarları bu vəziyyətdən düzgün nəticə çıxarmalıdırlar.

ŞƏRH

**RƏFİQƏ HÜSEYNOVA**

# Alət kimi istifadə edilən marionetlər

***Sərhədlərin delimitasiyası, demarkasiyası, ərazi bütövlüyünün tanınması, sülh sazişi kimi qarşıda həlli vacib məsələlərin olduğu halda, bir-birinin ardınca Ermənistanın təxribatlara əl atması, yenə də işğalçı siyasət yürütmək niyyəti həm təəssüf, həm də təəccüb doğurur. Çünki, işğalçılıq siyasətinin, təxribatçılıq əməllərinin Ermənistana gətirdiyi bəlaların, bu ölkəni fəlakətə sürüklədiyinin hər bir erməni artıq şahididir və təxribatçı, işğalçı hərəkətlərinin ardınca 44 günlük müharibənin məntiqi nəticəsi olan rüsvayçı məğlubiyyətlərinin, tamamilə süquta uğrama astanasında olmalarının fonunda ermənilərin yenə də təxribatlara, işğala meyilli, maraqlı olmaları həqiqətən də çox təəccüblüdür.***



Tarixi faktlar da təsdiq edir ki, ermənilər, daha dəqiq desək, haylar hər zaman torpaq iddiasında, bu iddia ilə də həmin köçəri tayfa vətən arzusunda olublar və arzularına çatmaq üçün bu ”vətənsizlər” dəridən-qabıqdan çıxıblar. Harada məskunlaşmalarından asılı olmayaraq qısa zaman fasiləsində həmin əraziləri özününküləşdirmək niyyətləri də bu hayları, indi özlərini erməni adlandıranları zaman-zaman fəlakətlərə sürükləyib. Məsələ burasındadır ki, indi məskunlaşdıqları, öz dövlətlərinin ərazisi kimi dünyaya bəyan etdikləri Azərbaycan torpaqları belə bu ”vətənsizlər” üçün azlıq edib və hələ də Azərbaycanın ərazilərindən gözlərini çəkə bilmirlər, nəfslərinə sahib dura bilmirlər, hansıki bu onlara neçənci dəfədir ki, baha başa gəlir. Ötən əsrin əvvəllərində də, sonunda da belə bir işğalçılıq siyasəti yürütməyi ermənilər məqbul hesab etdilər və hər ikisinin də nəticəsi bu köçəri hay toplumuna ağır nəticələrlə yadda qaldı. Amma, görünür haylar nə nəticə çıxarmaq, nə də ”ağıllanmaq” niyyətində deyillər və bunları öz bildikləri, anladıqları şəkildə başa salmaq, bunlara öz əməllərinə adekvat şəkildə cavab vermək gərəkir.

Ermənilərin təxribatlara bu ağır və acınacaqlı vəziyyətlərində də əl atacaqları təəccüblü göründüyü kimi, əslində, həm də gözlənilən idi. Çünki, sərhədlərin delimitasiyası, demarkasiyası, Zəngəzur dəhlizinin açılması kimi qarşısı alınmaz prosesləri həzm etmədikləri, bu proseslərə mane olmaq üçün hansısa fitnə törədəcəkləri əvvəlcədən proqnozlaşdırıla bilməyən məsələ deyil. Əksinə, bilmək lazımdır ki, delimitasiya və demarkasiya məsələləri, Zəngəzur dəhlizinin açılması sonda sülh sazişinə aparan yoldur və bu yolda maneçilik yaratmaq erməni əsillilərin hər zamankı şakəri, ənənəsi olub. Elə bu rakursdan da məsələyə yanaşmaq daha doğrudur və şübhəsiz ki, Ermənistan bütün səylərini toplayaraq, sərhəddə vəziyyəti gərginləşdirərək, sülh danışıqlarına mane olmağa çalışır və bu əməlləri hələ bundan sonra da gözləniləndir. Bir sözlə, erməni xislətini, mahiyyətini və maraqlarını nəzərə alaraq, daim Ermənistan tərəfinin müvafiq addımlarına, təxribatlarına hazırlıqlı olmaq lazımdır.

Nəzərə almaq lazımdır ki, ermənilərin təxribatlarının arxasında üçüncü qüvvələrin olması təkzibedilməzdir. Məsələn, Rusiyanın vasitəçilik missiyası fonunda Ermənistan hakimiyyətinin ”xeyir-dua” almadan hərəkət etməsi inandırıcı görünmür və ermənilərin buna hünəri belə çatmaz. Əgər, erməni silahlıları sərhəddə, rus sülhməramlılarının olduğu yerlərdə təxribatlara əl atmağa cəsarət edirlərsə, deməli, ya sifariş yerinə yetirirlər, ya da təxribat törətmək üçün icazələrini alıblar. Rusiyanın belə bir sifariş vermə ehtimalı da az deyil, çünki türkdilli dövlətlərin İstanbulda VIII Zirvə görüşü, ələlxüsus Türk Dövlətləri Təşkilatının 2040-cı il hədəfləri rusların ürəyincə olan bilməz və ermənilərin böyük qardaşları bundan qıcıqlanaraq işğalçı rejimi təxribatlara təhrik edə, yaxud qanunsuz əməllərinə icazə verə bilərlər. Ən azından onu deyə bilərik ki, istər Qarabağda, istərsə də sərhəddə baş verənlərdən Rusiya xəbərdardır. Sadəcə, ruslar buna göz yuma, özlərini bilməməzliyə vura bilərlər, amma bu sadalananları təkzib etmir. Bu fikrin təsdiqi olaraq onu da nəzərə çatdırmaq yerinə düşərdi ki, təxribat törədən Ermənistan tərəfi Azərbaycanın adekvat addımlarını, cavab reaksiyasını, əks həmləsini və onun ermənilər üçün acınacaqlı nəticələrini gördükləri, buna bir daha əmin olduqları zaman dərhal rus qardaşlarına, Rusiyaya onları vəziyyətdən çıxarmaq üçün yalvarmağa başladılar və bu heç də səbəbsiz deyildi. Ermənilərin ilk olaraq Rusiyaya üz tutması, kömək istəməsi də təsdiq edir ki, onlar sifarişi, yaxud icazəni məhz böyük qardaşlarından, ruslardan alıblar. Yəni, bu dəfə də ruslar onları bir marionet kimi alət ediblər.

Qafqaza yerləşdikləri 200 ildən bəri və Ermənistan dövləti yarandığı gündən bu zamana qədər ermənilərin başqaları tərəfindən həm idarə, həm də istifadə olunduğu heç kim üçün sirr deyil və bunu ermənilər özləri də yaxşı bilirlər, hətta bəziləri etiraf da edirlər. Hər zaman ermənilərin başqalarının siyasi hədəflərinin əlaltısı olduğu dəfələrlə öz təsdiqini tapıb. Ermənistanın daxilində baş verən proseslərdə belə bunu müşahidə etmək olar ki, ermənilər kimlərinsə siyasətinə alət olaraq istifadə olunub. Hətta birinci Qarabağ savaşı belə təkcə Ermənistanla Azərbaycan arasında həyata keçirilən bir müharibə deyildi və kimlərinsə, hansısa qüvvələrin maraqlarına xidmət etdiyi bəlli idi. Bu müharibənin ermənipərəst güclərin vəsaitləri, onların silahlı qüvvə və texnikaları ilə aparılması da məntiqi şəkildə bunu təsdiq edir. Təsdiq edir ki, ermənilər idarə olunan, alət kimi istifadə olunan marionetlərdir.

İmperialist, ermənipərəst qüvvələr, bölgəyə sülhün və sabitliyin gəlməsini istəmirlər. Onlar Azərbaycanın da, Türkiyənin də, hətta Ermənistanın da özlərindən asılı olmasını, sözlərindən çıxmayacaq bir şəkildə yaşamalarını istəyirlər, amma Ermənistan istisna olmaqla buna nail ola bilmirlər. Ələlxüsus, Azərbaycanın və Türkiyənin milli maraqlara cavab verən müstəqil siyasət yürütdüyünü müşahidə edən qüvvələrin qıcıqlandığı da özünü biruzə verir. Özü də erməni təxribatlarının fonunda bunu görmək çətin deyil. Həmin qüvvələr Rusiyada baş tutacaq zirvə görüşündən, Nikol Paşinyanın və erməni xalqının sabitliyə, Zəngəzur dəhlizinin açılmasına razılaşacağından, Azərbaycan və Türkiyə ilə atəşkəs anlaşmasının sülh razılaşmasına doğru getməsindən narahatdırlar ki, onlar bunu heç zaman gizlədə də bilmirlər. Bu da onları söz edir ki, yenə ermənilərdən alət kimi istifadə etsinlər, bölgədə qarışıqlıq yaratsınlar.

Azərbaycanın yürütdüyü siyasət, İstanbulda Türk Dövlətləri Təşkilatının VIII Zirvə görüşünün baş tutması, 2040-cı il, eləcə də 2022-ci il, 2026-cı il hədəfləri yönündə hər sahədə ortaq əməkdaşlıq, göstərilən əzm və qətiyyət bir çoxlarının yuxusunu ərşə çəkib. Türkdilli dövlətlərin birliyini, bu birliyin getdikcə daha da möhkəmləndiyini gördükcə bəzi qüvvələrin kürkünə birə düşür. Bir çox ermənipərəst qüvvələrdən tutmuş, bölgədə maraqları olan güclərə qədər heç biri türkdilli dövlətlərin getdikcə daha da qüvvətlənəcəyini həzm edə bilmirlər. Xüsusən, nə Azərbaycandan, nə də Türkiyədən istifadə edə, bu ölkələri alət edə bilməmələrinə, öz yolundan döndərməyi bacarmamalarına görə, onlar öz əlaltılarını, erməniləri alətə çevirir, Qarabağ klanından və bu klanın ordu içərisindəki adamlarından istifadə edərək təxribatlar törədirlər. Nəzərə almaq lazımdır ki, istər erməni diasporu və istərsə də Ermənistanın daxilində maraqları alt-üst olan Xocalının əliqanlı qatilləri yeni duruma, Azərbaycanın yaratdığı yeni reallıqlara hələ də alışa, bununla barışa bilmirlər və belə bir ab-hava bölgədə vəziyyəti öz xeyrinə dəyişmək istəyən, bölgədəki proseslərdən kənarda qalan, amma proseslərə qatılmaq, iştirakını təmin etmək istəyən qüvvələr üçün münbit şərait hesab olunur. Həmin o qüvvələrin də alətinə yalnız ermənilər çevrilirlər və Ermənistan tərəfinin təxribatlarında bu da özünü dərhal biruzə verir.

Təbii ki, kimlərin oyunlarına alət olmalarından asılı olmayaraq ermənilərin, erməni diasporunun, lobbisinin, ümumilikdə işğalçı ölkənin bütün hərəkətləri daim nəzarətdə saxlanılmalı, izlənilməli və müvafiq qabaqlayıcı tədbirlər belə görülməlidir. Ələlxüsus, 10 noyabr razılaşması çərçivəsində müəyyən bir planda olan məsələlərlə bağlı nəzarət gücləndirilməli, qabaqlayıcı diplomatiya və hərbi tədbirlərin sayı artırılmalıdır ki, acınacaqlı nəticələrə səbəb ola bilən hadisələrlə qarşılışılmasın. Ermənistan tərəfindən təxribatlar törədilməyə davam edəcəyi təqdirdə, adekvat addımlar atılmalıdır. Hətta, Araik kimi separatçıların əhaliyə silahlanma çağırışı, yaxid ermənilərin terrorçu əməlləri fonunda Azərbaycan Laçın dəhlizini belə bağlaya bilər ki, bunun qarşısı alınsın. Ölkəmizin buna hüququ da çatır, çünki Azərbaycan öz ərazilərini terrorçulardan, separatçılardan təmizləmək hüququnu özündə saxlayır və bu istiqamətdə görüləcək tədbirlər də məhz terrorçuluqla mübarizə olaraq əsaslandırıla bilər.

Artıq çoxdan bəlli olub ki, Ermənistan delimitasiyadan, demarkasiyadan boyun qaçırmaq niyyətindədir. Ermənilərin sülh sazişindən yayınmaq istəkləri də heç kim üçün sirr deyil. Maraqlıdır, əgər Ermənistan delimitasiyadan, demarkasiyadan boyun qaçırmaq, nəticə etibarı ilə sərhədlərimizi tanımaq istəmirsə, niyə Azərbaycan Ermənistanın sərhədlərini tanımalıdır? Əgər Ermənistan tarixən Azərbaycana məxsus olan torpaqların sərhəddini keçirsə, niyə Azərbaycan öz tarixi torpaqları olan, amma sonra məlum tarixi hadisələrin fonunda Ermənistan ərazisi kimi tanınan torpaqların sərhəddini keçməməlidir? Ermənistan təxribatlardan, işğalçılıq siyasətindən əl çəkmirsə, mövqelərini bizim torpaqlarımızda irəli çəkmək istəyirsə, niyə Azərbaycan Ermənistan postlarını ələ keçirə-keçirə irəli getməsin? Onsuz da həmin torpaqlar tarixən Azərbaycan torpaqları olub. Bəlkə bundan sonra kimsə üzündə üz tapıb, cəsarət edib, özünə haqq qazandırıb Azərbaycan əsgərinin irəli getməsinə etiraz etmək istəyə bilər? Yoxsa yenə də beynəlxalq hüququ ortaya atmağı düşünənlər, buna ümid edənlər var? Beynəlxalq hüququ bayraq etmək istəyənlərdən, bununla əsgərlərimizin antiterror əməliyyatının qarşısını almaq istəyənlərdən əvvəla soruşulmalıdır ki, onlar ötən əsrin sonlarında niyə Ermənistan silahlı birləşmələrinin Azərbaycan torpaqlarına hücum etdiyi, işğal etdiyi zaman beynəlxalq hüququ yada salmırdılar, bunu bayraq etmirdilər? Beynəlxalq hüquq yalnız Azərbaycan tərəfinə şamil edilmək üçün nəzərdə tutulubmu? Digər tərəfdən, Azərbaycan əsgərinin irəli getməsinə etiraz etməyə çalışan, burada beynəlxalq hüququ ortaya atanlar bilməlidirlər ki, Azərbaycan əsgəri Zəngəzurda, Göyçə istiqamətində irəliləyərsə, kimlərinsə torpaqlarında, ərazilərində deyil, öz vətən torpağında irəliləmiş olacaq və bunun nə kimsəyə dəxli yoxdur, nə də beynəlxalq hüquqa.

Ermənistan, erməni lobbisi, ümumilikdə bütün ermənilər kimlərininsə aləti, yaxud marianetidir, amma bu onlara əsas vermir ki, Azərbycanın hüquqlarını tapdalasın, torpaqlarımıza iddialı olsun, işğal etmək niyyətinə, arzusuna düşsünlər. Kimlərinsə alətinə, marionetinə çevrilənlərin ölkəmizə qarşı hərhansı təxribatları, işğalçılıq meyillərinə görə başlarının əzilməsi, layiqincə cavablandırılması və cəzalandırılması Azərbaycanın qanuni haqqıdır, buna kimsənin nəinki qarışacağı, heç etirazı belə ola bilməz. Bir sözlə, alət kimi istifadə edilən marionetlər bilməlidirlər ki, Azərbaycana qarşı hərhansı təxribatçı əməlləri, işğalçılıq siyasətinə görə başları əziləcək və bunun üçün dəmir yumruq öz yerindədir.

***İnam Hacıyev***

# Rus ekspert: Ermənistan Rusiyanın səbrini sınayaraq, revanş cəhdini davam etdirsə, hər şeyini itirəcək



*Yevgeni Mixaylov: "Azərbaycanın mövqelərinin irəliləməsi sülh sazişləri çərçivəsində baş verir, çünki Sovet xəritələrinə görə bura Azərbaycan ərazisidir. Və Ermənistan üçtərəfli bəyanatı yerinə yetirmək istəməsə, buna "həvəsləndiriləcək"*

Sərhəddə gərginliyə nə səbəb oldu və bu, Ermənistan-Azərbaycan nizamlanması üzrə üçtərəfli bəyanatın icrasına necə təsir edəcək? Nüfuzlu rus politoloq, millətlərarası münaqişələr üzrə ekspert Yevgeni Mixaylov "Moskva-Baku" platformasına şərhində bu mövzuda maraqlı fikirlər səsləndirib. Politoloqun şərhini oxucularımıza təqdim edirik.

-Belə bir eskalasiya, məncə, gözlənilən idi. Və bu, İrəvanın günahı ucbatından baş verdi. Ermənistan bir il əvvəl üçtərəfli bəyanat imzaladı. Sonra 2-ci Qarabağ müharibəsi bitəndən sonra hər tərəfdən sıxıldı, vəziyyətini, milli psixoloji sarsıntını başa düşdükdən sonra ona o qədər də təzyiq göstərmədilər, əslində indi deyə bilərik ki, bir il fasilə verdilər. Beləliklə, üçtərəfli bəyanatı imzalayan ölkələr bir daha Ermənistan rəhbərliyinin ləyaqətinə, onun gedəcək yerinin olmadığını, ölkədə vəziyyətin ağır olduğunu və Ermənistanın noyabr razılaşmasını yerinə yetirəcəyinə və Ermənistanın inkişafında yeni səhifə açacağına ümid ediblər. Hesab ediblər ki, Ermənistan region ölkələri ilə qarşılıqlı fəaliyyətə başlayacaq, Azərbaycanla sərhədin delimitasiyası prosesinə hazır olacaq, nəqliyyat və iqtisadi əlaqələrin açılmasında iştirak edəcək. Nəticədə məlum oldu ki, Ermənistan ötən ilin payızında müharibəni dayandıraraq onu sadəcə olaraq xilas edən Rusiyanı yenidən vurdu.

Biz xatırlayırıq ki, 2-ci Qarabağ müharibəsi başa çatdıqdan və üçtərəfli bəyanat imzalandıqdan sonra Ermənistan terror aktı törətmək məqsədi ilə Azərbaycan ərazilərinə diversantlar yeridir, hər zaman bu diversantları demək olar ki, günahsız kimi təqdim edir. Azərbaycan tərəfi onları hərbi əsirlər kimi güzəştə getdi, saxlanılan hərbçilərin bir hissəsini Ermənistana təhvil verdi.

Son günlər Azərbaycanla Ermənistanın sərhədində insidentlərin artdığını müşahidə edirik. Daha sonra Ermənistanda müdafiə naziri dəyişdirildi. Və bunun nəticəsidir ki, biz artıq sərhəddə hər iki tərəfdən daha çox itki ilə real yerli döyüşlərin şahidi olmuşuq.







Ermənistan bilərəkdən eskalasiyaya səbəb olub. Onun məqsədi təkcə üçtərəfli bəyanatın icrasını pozmaq deyil, həm də münaqişə zonası Ermənistanın əməkdaşlıq etməyə çalışdığı digər ölkələrdən sülhməramlılar gətirməyə çalışmaq üçün Ermənistan-Azərbaycan nizamlanmasında əsas vasitəçi kimi Rusiyanın səylərini aşağılamaqdır.

Erməni tərəfinin Rusiyanı və Rusiya sülhməramlılarını gözdən salmaq cəhdləri göz qabağındadır. Və bu, Moskva asayişi bərpa etmək qərarına gələnə qədər davam edəcək. Bunu ondan həm Azərbaycan, həm bütün sağlam qüvvələr, həm də Paşinyanın sülhün məntiqini quracağına artıq hazır olan ermənilər gözləyir.

Təcrübə göstərir ki, Ermənistana ən sərt şərtləri qoymalı idilər ki, imzaladığı müqaviləni yerinə yetirsin. Bu baş vermədi. İndi Ermənistan yenə qışqırır: KTMT, bizi xilas edin, əks halda başqa beynəlxalq təşkilatlara müraciət edəcəyik. Bu, Rusiyaya qarşı açıq-aşkar təxribatdır. Və KTMT yenə də önə keçmədi, çünki Azərbaycanın mövqelərinin irəliləməsi sülh sazişləri çərçivəsində baş verir, çünki Sovet xəritələrinə görə bura Azərbaycan ərazisidir. Və Ermənistan üçtərəfli bəyanatı yerinə yetirmək istəməsə, buna "həvəsləndiriləcək". Ermənistanda gözlənilən Azərbaycanla qarşıdurmaya nə KTMT-nin, nə də Rusiyanın ehtiyac yoxdur. Həm KTMT-nin eskalasiyaya reaksiyası, həm də Rusiyanın reaksiyası bunu göstərir.

Rusiya indi bir daha göstərdi ki, Moskva Ermənistan-Azərbaycan nizamlanmasında əsas vasitəçi rolunu oynayır və sülh yolunda yaranan problemləri həll edə bilər. Aydındır ki, Kremlin bugünkü bəyanatı ki, liderlərin üçtərəfli görüşü üçün (9 noyabr 2020-ci il bəyanatın imzalanmasının ildönümünə hazırlanıb, lakin görünür, erməni tərəfi mane olub) bütün tərəflərin razılığına ehtiyac var. Bu bəyanat daha bir təsdiqdir ki, üçtərəfli danışıqların pozulmasının təşəbbüskarı məhz İrəvan olub, çünki üçtərəfli bəyanatın imzalanmasının ildönümü ərəfəsində məhz Nikol Paşinyan deyib ki, onun üçün görüş xatirinə görüşə ehtiyac yoxdur.

Hesab edirəm ki, özünü tamamilə qeyri-konstruktiv aparan Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından çıxarılmasının vaxtı çoxdan çatıb, çünki özünü tamamilə nüfuzdan salıb. Ermənistan öz davranışı ilə artıq çoxdan Rusiyanın müttəfiqi deyil. Və bunun üçün böyük düzəlişlər edilməlidir. Rusiyanın regionda öz maraqları var, lakin bu o demək deyil ki, o, erməni tərəfinin ardınca gedəcək. Üstəlik, Ermənistan Rusiya ilə razılaşmaları dəyərləndirməyəndə, İrəvanda Rusiya əleyhinə mitinqlər keçiriləndə.

Hesab edirəm ki, imzaladığı üçtərəfli bəyanatı yerinə yetirməyən ölkəyə münasibətdə öhdəliklərini yerinə yetirmədiyinə görə sanksiyalar tətbiq edilməlidir.

Ermənistan Müdafiə Nazirliyi mövqelərin itirilməsini təsdiqləyib, müxalifət itirilmiş ərazilərdən danışır. Əgər Ermənistan tərəfi Rusiyanın səbrini sınayaraq, revanş cəhdini davam etdirsə, hər şeyini itirəcək. Baş verənlərə baxsaq, bunu Ermənistan özü istəyir.

***Tərcümə - Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış" istiqaməti çərçivəsində hazırlanıb.*

## Şəkər immuniteti necə öldürür?



Bağırsaqlar çoxlarının təsəvvür etdiyi kimi qidanı həzm edən boru deyil, o həm də milyonlarla zərərli və faydalı bakteriyanın evidir. Orda bədənə lazım olan maddələr, vitaminlər sovrulur.

Bağırsaqların vəziyyətindən immunitet, beyinin işi, əhval, hətta arzular asılıdır. Bağırsaqda olan zərərli mikroorqanizmlər belə orqanizm üçün lazımdır, lakin onların sayı çox olmamalıdır və bu bakteriyaların ifraz etdiyi toksiki maddələr insan üçün zərərlidir.

Pis bakteriyaların sevimli qidası şəkər, şirniyyatdır. Onu bilmək lazımdır ki, hər dəfə marketə gedib gözünüzə xoş gələn dadlı konfeti, şirniyyatı alanda bu istəyi sizdə həmin pis bakteriyalar yaradır və siz onları yedizdirib çoxaldırsız. Şirniyyat çox yedikcə nəticəniz: bakteriyaların çoxalması, intoksikasiya, immunitetin zəifləməsi, qazlar, köpmə, deşilmiş bağırsaq sindromu və s.

Sizin bədəniniz ancaq onunla məşğuldur ki, bakteriyaların ifraz etdiyi növbəti zəhəri bədəndən hər nə yolla olursa olcun xaric etsin. Xaricdən gələn infeksiyalara isə enerji qalmır. Toksinlər isə allergiya, qaşınma, dəridə səpkilər, üzdə sızanaqlar, baş dərisinin yağlanması, limfa və qan kirlənməsi ilə xaricə çıxır.

Ona görə də orqanizmə dəstək üçün hər gün az-az da olsa şəkəri, un məmulatlarını azaldıb, nəfsinizə hakim kəsilib, boş kalorilərlə bədəninizi doldurmursuz. Onun yerinə quru meyvələr, tərəvəz, qoz, tumlar, toxumlar, yağlar, balıq, ət yeyirsiz. Bu zaman bağırsaq düzgün işləyir, vitamin-mineral ehtiyatı bərpa olur, immunitet güclənir, beyin daha yaxşı işləyir.

SON SƏHİFƏ
SƏS
18 noyabr
2021-ci il

# Ronaldodan yeni paylaşım: "Mançesterə qayıtmaq vaxtıdır"



***"Mançester Yunayted"in portuqaliyalı hücumçusu Kriştiano Ronaldo millinin düşərgəsindən klubuna qayıtması ilə bağlı paylaşım edib. Qol.az xəbər verir ki, 36 yaşlı hücumçu sevgilisi Corcina Rodriqeslə təyyarədə çəkdirdiyi şəkli paylaşaraq bu sözləri yazıb:***



"Nə qədər uzağa getsək də, mən və ailəm həmişə Portuqaliyada özümüzü evdəki kimi hiss edirik. İnanılmaz iqlim, gözəl yeməklər, portuqalların sevgisi. Evə gəlmək mənim üçün həmişə xoşdur. Mançesterə qayıtmaq və tamamilə fərqli hədəflərə diqqət yetirmək vaxtıdır, lakin biz tezliklə qayıdacayıq. Görüşənədək Portuqaliya".

Qeyd edək ki, Portuqaliya DÇ-2022-nin pley-off mərhələsində mübarizə aparacaq.

# Kolbasa ilə bağlı eşidəcəkləriniz sizi də ŞOKA SALACAQ!

***"Kolbasaları seçmək elə də asan iş deyil. Amma bəzi ipucları var. Kolbasalar kiflənmiş olmalı deyil. Diqqət etmək lazımdır ki, vitrində olan kolbasalar kiflənmiş olmasın. Çox vaxt görürsünüz ki, marketlərdə götürüb ortaya qoyurlar, soyuducu deyil, sadə bir şüşənin içində saxlayırlar və orada o şirə salır kiflənmə gedir. Elə kolbasaları almasınlar". Bu sözləri SİA-ya açıqlamasında qida texnoloqu Ağa Salamov deyib. Onun sözlərinə görə, həmçinin, kolbasanı bağırsağın içinə doldururlar: "Üstünün plyonkası, mən bildiyim qədər bağırsağın içinə doldurulub.***



Bağırsağın arasında ətlə hava qalmalı deyil, yəni, boşluq olmalı deyil. Ona da diqqət olunmalıdır. Bir də son istehsal tarixinə də baxılmalıdır. Kolbasalara nitrat, qatqı maddələri, rəngini qoruyucu maddələr, monosodium qlütomat vurulur".

Ağa Salamov sözlərinə belə davam edib: "Dadını, rəngini qorumaq, vitrinin ömrünü uzatmaq üçün müxtəlif qatqı maddələri vurulur ki, bunun üçün də kolbasaları uşaqlardan və yaşlılardan uzaq tutmaq lazımdır. Çünki, qan təzyiqi, ürək qandamar sistemi problemləri yaradır. Bu həm uşaqlarda, həm də yaşlılar üçün riskdir".

"İstehlakına gəlincə kolbasalardan delikates kimi istifadə etmək lazımdır. Çünki, çox istehlak olunduğunda müxtəlif fəsadlara yol aça bilər ki, hətta bu qida zəhərlənməsi də ola bilər. Çünki, onun tərkibində bəzi qatqı maddələri var. Ona görə də qida dözümsüzlüyü yarada bilər".

"Xüsusilə, ürək qan-damar sistemi xəstələri, obaziteya, yəni, kökəlməyə meylli, təzyiqi olan insanlar kolbasa məmulatlarından az istifadə etmələri tövsiyə olunur".

"Kolbasaya qatqı məsələsinə gəlincə çox vaxt baxırıq ki, ucuz kolbasalar var satışda və yanına da bir ədəd kolbasa bağlayaraq onu endirimdə satırlar. Düzdür, ucuzla bahalını ayırmaq mümkün deyil ki, onların tərkibi nədir, hansı ətdən istifadə olunub, nə vurublar. Amma çox vaxt bu ucuz kolbasalarda ağciyərdən, toyuq dərisindən, ətin müxtəlif çıxıntılarından istifadə olunur. Hansı ki, lazımsız yerləridir və bu da kolbasanın maya dəyərinin aşağı düşməsinə səbəb olur".

"Eyni zamanda, soyadan, süd zülalından da istifadə olunur. Yəni, kolbasanın rəngini, dadını qorumaq üçün müxtəlif qatqı maddələrindən istifadə olunur. Ona görə də tövsiyə olunur ki, onu delikates kimi istehlak etsinlər. Yəni, ayda, həftədə heç olmasa bir dəfə iki dilim yesinlər və yaxud az yesinlər ki, bədən o nitratları ata bilsin, qatqı maddələrini bədən özündən ixrac edə bilsin".

*Ayşən Vəli*

# 50 milyon xərçəng adanı ələ keçirib

***50 milyondan çox qırmızı xərçəng meşədən sahilə köç edərək inanılmaz mənzərənin yaranmasına səbəb olub. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, turistlər bu qədər xərçəngi görəndə məəttəl qalıblar və şok görüntülərə şahid olmaq üçün bir-biri ilə yarışıblar.***



Hər il çoxalmaq üçün okeana köç edən milyonlarla qırmızı xərçənglər, Qərbi Avstraliyanın Milli Parkın sahillərinə səyahət ediblər. Yerli sakinlər və səyyahlar planetin ən böyük heyvan miqrasiyalarından biri hesab edilən xərçənglərin görüntülərini çəkmək üçün yarışıblar, çünki, xərçənglər adanı sanki qırmızı rəngə boyamışdılar.

*Rüqəyya Orucova*

# Qarabağda çəkilən kadrlar "Bakcell"in yeni reklamına aiddir




***Bir qədər əvvəl sosial şəbəkələrdə və xəbər portallarında Şuşanın Cıdır Düzündə və Füzuli Beynəlxalq Hava Limanında aparılan çəkilişlərdən maraqlı fotolar yayılmışdı.***

Məlum olub ki, həmin çəkilişlər Bakcell şirkətinin yeni reklam çarxına aiddir. Şirkətdən bildirilib ki, reklam çarxı Bakcell şəbəkəsinin üstünlüyünə həsr edilib. Azərbaycanın ən sürətli mobil şəbəkəsi artıq işğaldan azad olunmuş torpaqlarımızda da xidmət göstərir. Bakcell Qarabağda şəbəkənin əhatə dairəsinin genişləndirilməsi və yüksək keyfiyyətli xidmətlərin təmin edilməsinə yönəlmiş genişmiqyaslı işlərini davam etdirəcək.

Qeyd edək ki, 2021-ci ildə Bakcell şəbəkəsi növbəti dəfə Ookla® tərəfindən "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" adına layiq görülüb. Bu gün Bakcell şəbəkəsi 8700-dən çox baza stansiya sayəsində Azərbaycan əhalisinin 99.9%-ni, ölkə ərazisinin isə 92.4%-ni əhatə edir. Qarabağda çəkilən yeni Bakcell çarxına aşağıdakı keçiddən baxmaq olar: https://www.youtube.com/watch?v=zThuwdea964

# Uşaqlar məktəbə ayaqyalın gedəcəklər

Qərbi Avstraliya əyalətinin paytaxtı Pertdə maraqlı və mübahisəli qərar qəbul edilib. Uşaqlar böyüklərimizdən "Ay oğlum, ayaqyalın gəzmə" kimi xəbərdarlıqlar və qadağalar eşidib,



amma bundan sonra belə bir hal olmayacaq. Çünki, alınacaq maraqlı qərarla uşaqların ayaqyalın məktəbə gəlməsi təşviq ediləcək. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, qərarın növbəti tədris ilində tətbiq ediləcəyi gözlənilir.

Məktəb, uşaqların qamət pozğunluqlarını düzəltmək, hisslərin dəyişməsi, ayaq və bədənlərini inkişaf etdirmək üçün bu mübahisəli təcrübənin lazım olduğunu açıqlayıb. Qərara görə, ayaqyalın gəzmək uşaqlarda görülən bu problemlərin həlli yolu ola bilər. Lakin ekspertlər bu nəzəriyyəni qəbul etmir və bu istiqamətdə heç bir dəlil olmadığını iddia ediblər.

## BAŞSAĞLIĞI

Məmmədhəsən Məmmədov, Güllər Məmmədova, Esmira Əliyeva, Solmaz Quliyeva

Pirallahı rayon kitabxanasının sabiq direktoru İsmayılova Xavər Tahir qızına

atası Tahir müəllimin vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin.**

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 4600**